# Demokratiya və İnsan Hüquqları

▸▸ BİZİMLƏ BAŞLAYIR ! ◂◂

**Avropa Şurasını**
Demokratik Vətəndaşlıq və
Insan Hüquqları haqqında
Təhsil üzrə Xartiyası

## HƏR KƏSIN XARTIYASI

▸▸ Müəllimlər üçün metodiki tövsiyələr ◂◂

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası: Müəllimlər üçün metodiki tövsiyələr

*Bu kitabda ifadə olunmuş fikirlərə görə məsuliyyəti müəlliflər daşıyır və bunlar,  Avropa Şurasının rəsmi siyasəti ilə üst-üstə düşməyə bilər.*

Müəllif hüquqları qorunur. Kommunikasiya Direktoratlığının (F-67075 Strasburq Cedex və ya publishing@coe.int) öncədən yazılı icazəsi olmadan bu kitabın heç bir hissəsi elektron (CD- Rom, internet, və s.) və ya mexaniki, o cümlədən, surətinin çıxarılması, lentə yazdırılma və ya informasiya saxlama və ya avtomatik düzəliş etmə sistemi vasitəsi ilə hər hansı forma və üsullarla tərcümə edilə, nəşr oluna və ya ötürülə bilməz.

Redaktor: Elena Diez Villagrasa
Rəyçi: Annette Şneider
Korrektor: SPDP
Qrafik dizayn, struktur və illüstrasiyalar: Pampaneo

©Avropa Şurası, oktyabr 2012
Yenidən nəşr olunmuşdur: sentyabr 2013
Avropa Şurası tərəfindən nəşr edilib

Bu kitab Finlandiya hökumətinin dəstəyi ilə nəşr edilib

# Mündəricat

**Ön söz**

**DVT/İHT üzrə Xartiya ilə bağlı tədris materialları**

**1. Giriş**

- Avropa Şurası
- Xartiya

**2. Gənclər qrupu ilə Xartiya üzərində necə işləməli?**

- Xartiya – təhsil konteksti çərçivəsində
- Avropa Şurasının nəşrlərinə istinadlar
- Uyğunlaşdırma
- Plakatdan istifadə
- "Hamı üçün Xartiya": fəsilbəfəsil ideyalar

  1. Xartiyanın hazırlanması zərurəti necə yaranmışdır?
  2. İnsan hüquqları nədir?
  3. Demokratik vətəndaşlıq nədir?
  4. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil nədir?
  5. İnsan hüquqları və demokratiyanın əsas prinsipləri hansılardır?
  6. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil prosesinə kimlər cəlb olunurlar?
  7. Məktəb və təşkilatlar insan hüquqları və demokratiyaya hörmətlə yanaşırlarmı?
  8. Vətəndaşlıq və insan hüquqları haqqında təhsili necə təşviq etmək olar?

- Xartiya ilə işinizin yekunlaşdırılması

**3. Əlavələr**

- Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası
- İş cədvəli: Demokratiya və insan hüquqları bizimlə başlayır: hazırda hansı mövqedəyik?
- Avropa Şurasına üzv dövlətlərin xəritəsi

# Ön söz

Son onilliklərdə zorakılıq, irqçilik, ekstremizm, ksenofobiya, ayrı-seçkilik və dözümsüzlüyün artması cəmiyyətlərimizdə ciddi problemlər yaratmışdır. Artıq bir çox hallarda təhsil belə anlayışlara və onların səbəb olduğu insan hüquqlarının pozulması hallarına qarşı müdafiə vasitəsi, həmçinin sosial birlik, sosial ədalət və sülh üçün böyük töhfə hesab olunmaqdadır.

Bu sahədə təhsilin getdikcə artmaqda olan əhəmiyyətli rolu 2010-cu ildə Avropa Şurasına üzv dövlətlər tərəfindən **Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyanın (bundan sonra Xartiya)** qəbul olunmasında özünü göstərir. Xartiyada bu tipli təhsil formalarının təşviq edilməsi yolları ilə bağlı məsləhət və tövsiyyələr əks olunur. Bu tövsiyyələrdən biri Xartiyanın məqsədləri və onun praktikada tətbiqi üsulları ilə bağlı mümkün qədər çox insanı məlumatlandırmaqla onun daha geniş yayılmasını təşviq edir. Hal-hazırda oxuduğunuz materialların işlənib hazırlanmasının səbəbi məhz bu olmuşdur.

# DVT/İHT üzrə Xartiya ilə bağlı tədris materialları

Bu sənəd bütöv bir materiallar komplektinin bir hissəsi olub sizə uşaq və gənclərlə Xartiya üzərində işləmək imkanı yaradacaqdır.

## Demokratiya və insan hüquqları bizimlə başlayır!

Gənclər üçün nəzərdə tutulmuş eyni başlıq altında olan bu iki materialda aşağıdakı məlumatları tapmaq olar:

### Hamı üçün Xartiya

Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası (Xartiya) 12- 15 yaş arasında olan uşaqların onu asanlıqla qavraması məqsədi ilə daha sadə versiyaya salınmışdır.  Ancaq bu, yalnız bir istiqamət formasıdır və sənədin digər yaş kateqoriyaları üçün də uyğun olması faktını istisna etmir.  Bu, gənclərin sərbəst oxuya biləcəkləri bir sənəddir, lakin qrupla iş zamanı da faydalı ola bilər.

### Plakat

Plakat Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil (DVT/İHT) ilə bağlı fəaliyyətləri həyata keçirən gənclər qrupları arasında maarifləndirmə işinin genişləndirilməsi məqsədini daşıyır. Plakat sinif otaqları, gənclər mərkəzləri və klubları, yay düşərgələri və s. məkanlarda nümayiş olunmaq məqsədi ilə hazırlanmışdır. Bir çox hallarda DVT/İHT diqqətdən kənarda qalır və bu baxımdan belə bir plakat həm bir daha qrupun demokratiyaya və insan hüquqlarına töhfəsini təsdiqlə, həm də onları bu tipli müsbət fəaliyyətlərini davam etdirməyə təşviq edə bilər. Eyni zamanda, o, DVT/İHT üzrə Xartiyanın əsas məğzini 12 cümlə ilə yığcam şəkildə təqdim etməklə hərtərəfli düşünməni stimullaşdıran pedaqoji vasitədir.

## Müəllimlər üçün metodiki tövsiyələr

Bu sənəd Xartiyada əks olunmuş məqamlara əlavə aydınlıq gətirir və ən əsası tədris kontekstində qruplarla iş zamanı istər Hamı üçün Xartiya, istərsə də plakatla necə işləmək gərəkdiyinə dair bəzi məsləhətlər təqdim edir. Bu material DVT/İHT –yə giriş üçün və ya verilən mövzularla əlaqədar görülən işlərə dair rəy və fikirlərin verilməsi baxımından bir vəsait kimi faydalı ola bilər.

**Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası = (Xartiya)**

**Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil (DVT/İHT)**

# 1 GİRİŞ

## Avropa Şurası

Avropanın ən qədim hökumətlərarası təşkilatı olan Avropa Şurası 1949-cu ildə İkinci Dünya müharibəsindən sonra təsis edilmişdir. Hazırda Avropa Şurasına 47 üzv dövlət daxildir. Onun əsas məqsədi Avropa
İnsan Hüquqları Konvensiyası və insanların müdafiəsinə dair digər sənədlər əsasında Avropada ümumi və demokratik prinsiplərin inkişaf etdirilməsidir.

Avropa Şurası bu fundamental dəyərlər əsasında terrorizm, mütəşəkkil cinayətkarlıq və korrupsiya, kibercinayətkarlıq, bioetika və klonlaşdırma, uşaqlara və qadınlara qarşı zorakılıq və insan alveri kimi böyük problemlərin ortaq həllini tapmağa çalışır. Bütün üzv dövlətlər arasında əməkdaşlıq Avropanın bu gün üzləşdiyi bu böyük problemlərin həllinin ən yaxşı yolu hesab olunur.

Avropa Şurası mədəniyyət və təhsil sahələrində də fəaldır. Avropa Mədəniyyət Konvensiyası 1955-ci ildə qüvvəyə mindikdən sonra bütün Avropa məkanında bu sahədə genişmiqyaslı əməkdaşlıq fəaliyyətləri həyata keçirilmişdir.

### AVROPA ŞURASI HAQQINDA ƏLAVƏ MƏLUMAT

- Avropa Şurası : _www.coe.int_

### AVROPA ŞURASININ TƏSİSATLARI HAQQINDA

- Nazirlər Komitəsi: _www.coe.int/cm/_
- Parlament Assambleyası : _www.assembly.coe.int_
- Yerli və Regional Qurumlar Konqresi: _www.coe.int/Congress/_
- Avropa İnsan Hüquqları Məhkəməsi: _www.echr.coe.int/ECHR_
- BQHT-lər Konfransı: _www.coe.int/ngo_
- İnsan Hüquqları Komissarı: _www.coe.int/commissioner_

## Xartiya

**Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası**
Nazirlər Komitəsinin NK/Töv. (2010)7 saylı Tövsiyəsi çərçivəsində qəbul edilmişdir

Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil (DVT/İHT ) layihəsi Avropa Şurasının insan hüquqları, demokratiya və qanunun aliliyini təşviq etmək istiqamətində başlıca məqsədinə, həmçinin bu məqsədə nail olunması prosesində təhsilin mühüm rola malik olması inamına əsaslanır. 1997-ci ildə keçirilmiş Avropa Şurasına üzv Dövlətlərin Dövlət və Hökumət Başçılarının 2-ci Sammitində “demokratik cəmiyyətdə vətəndaşların hüquq və öhdəlikləri ilə bağlı biliklərini artırmaq məqsədi ilə demokratik

vətəndaşlıq haqqında təşəbbüsü başlatmaq” [1] qərarı verildi və bu, DVT/İHT-nin həyata keçirilməsi prosesinə təkan vermiş oldu.

Avropa Şurasının sözügedən Xartiyası üzv dövlətlərin demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilə dair öhdəliklərlə bağlı mühüm mövqelərini əks etdirir və bu öhdəliklərin yerinə yetirilməsi istiqamətində standartları müəyyən edir.

Beynəlxalq təcrübədə “xartiya” terminindən həm məcburi, həm də qeyri-məcburi vasitələr olaraq istifadə olunur. Məcburi vasitələr özündə nəzarət mexanizmlərini birləşdirir. Belə mexanizmlər məhkəmə (məsələn, Avropa İnsan Hüquqları Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyası üçün nəzarət mexanizmidir) və ya komitə (məsələn, Avropa Sosial Komitəsi Avropa Sosial Xartiyası üçün nəzarət mexanizmidir) formasında ola bilər. Onların əsas məqsədi hüquqi vasitələrin təcrübədə səmərəli tətbiqini təmin etməkdir.

Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyasının adı və forması qurumun üzv dövlətlər tərəfindən bu sahədə əvvəllər qəbul edilmiş sənədlərlə müqayisədə daha mükəmməl sənədin qəbul edilməsi istəyini əks etdirməklə onlar üzərində daha ciddi öhdəliklər qoyur. Lakin üzv dövlətlərin əksəriyyəti beynəlxalq hüququn predmeti kimi Xartiyanın qeyri-məcburi olmasının tərəfdarı idilər. Buna görə də sənəd tövsiyyə şəkilində qəbul edildi: tövsiyyələr və onlara əlavələr qeyri-məcburi xarakter daşıyır. Beləliklə, bizim Xartiya kimi qəbul etdiyimiz sənəd, özlüyündə Nazirlər Komitəsinin NK/Töv.(2010) 7 saylı Tövsiyyəsinə əlavədir. Üzv dövlətlərin Xarici İşlər Nazirləri və ya onların nümayəndələri, bu mətni 2010-cu ilin may ayında Strasburqda Avropa Şurası Nazirlər Komitəsinin 120-ci sessiyasında qəbul etdilər.

Əksər hallarda Xartiya onun qəbul edilməsinə dair Tövsiyənin mətni (bax: Əlavələr) olmadan nəşr edilir. Bu səbəbdən də tam başlıqdan sonra onun qeyri- məcburi xarakterini aydın əks etdirən “Nazirlər Komitəsinin NK/Töv. (2010) 7 saylı Tövsiyyəsi çərçivəsində qəbul edilmişdir” sözləri əlavə edilir. Xartiyanın tam mətnindən sonra onun mənşəyi, tarixi və onunla bağlı aparılan müzakirələri əks etdirən, həmçinin Xartiyanın müddəaları və tövsiyyələrinə dair şərh və izahedici mətnlərdən ibarət qeydlər verilir.

1. Avropa Şurasına Üzv Dövlətlərin Dövlət və Hökumət Başçılarının 2-ci Sammitinin Yekun Bəyannaməsi

# 2 GƏNCLƏR QRUPU İLƏ XARTİYA ÜZƏRİNDƏ NECƏ İŞLƏMƏLİ

## Xartiya - təhsil konteksti çərçivəsində

Bu Xartiya hüquqi dildə yazılmış və əsasən hökumətlərə ünvanlanmışdır. Eyni zamanda, bu Xartiya Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsilin dəstəklənməsi və təşviq edilməsi prosesində təhsil sahəsində mütəxəssislər, qeyri-hökumət gənclər təşkilatları, valideynlər, tərbiyəçilər və uşaqlar kimi bir çox müxtəlif maraqlı tərəflərin əhəmiyyətini xatırladaraq onların hər birinin bu haqda maarifləndirilməsinin vacibliyini vurğulayır. Nəzərdə tutulmuş təhsil fəaliyyətlərinin nəksəriyyətində daha çox uşaq və gənclər iştirak etdiyindən və bu mövzu daha çox onlara aid olduğundan belə qərara gəlinmişdir ki, bu nəşrin əsas oxucu kütləsi onlar olsun və Xartiya daha anlaşılan dildə izah edilsin.

Xartiya ilə bağlı materiallar ilk növbədə **12-15 yaş** arasında olan uşaqlar və gənclər üçün nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, Xartiyanın yazılma üslubu və dizaynı bu yaş qrupu üçün nəzərdə tutulsa da, müxtəlif yaş qruplarından olan şəxslər də ondan yararlana bilər. Bir müəllim kimi siz də müxtəlif yaş qruplarındanundan olan insanlarla işləyərkən ondan istifadə etməkdə maraqlı ola bilərsiniz. Hətta “uşaq” və ya “ yeniyetmə” terminlərindən istifadə etmək daha dəqiq olsa belə, diqqət yetirin ki, bu sənəddə biz “gənc” terminindən istifadə edəcəyik. İstənilən oxucunun istifadə edə bilməsi məqsədi ilə “uşaqlar” və “yeniyetmələr” terminlərindən istifadı edilməmişdir, bu prinsip isə “Hamı üçün Xartiya” anlayışına uyğun gəlir. Həmçinin, “**sizin qrup**” terminindən istifadə olunacaqdır ki, bu da tələbələr və ya şagirdlər, iştirakçılar və ya üzvlər, eləcə də birgə qarşılıqlı təhsil çərçivəsində istər **formal**, istərsə də **qeyri-formal təhsil kontekstində** tətbiq oluna bilsin.

Məzmununun daha aydın olması məqsədi ilə “Hamı üçün Xartiya” orijinal Xartiyadan yalnız yazılma üslubuna görə yox, həmçinin strukturuna görə də fərqlənir. İlk növbədə, “Hamı üçün Xartiya”da orijinal xartiyada qeyd edilməyən Avropa Şurası haqqında qısa giriş verilir və bu Xartiyanın yaranma səbəbləri izah edilir. İkinci və əsas müvafiq hissə isə Xartiyanın məzmununu əks etdirən sual–cavab formatında səkkiz fəsildən ibarətdir.

Bundan başqa, mətnin oxucular üçün daha aydın və anlaşıqlı olması məqsədi ilə Xartiyanın məzmununa dair cavablar müxtəlif qrafik elementlərlə müşayiət olunur. Bu elementlər qrup müəllimi kimi sizin üçün də faydalı ola bilər.



**Düşündürücü suallar** fərdi düşünmək və ya qrupla fikir mübadiləsi və **müzakirələr** aparmaq üçün mənbədir. Eyni zamanda, bu suallardan hər bir növbəti mövzunu daha ətraflı təhlil edən təlim və tapşırıqlar zamanı əsas kimi də istifadə oluna bilər.



**Fəaliyyət üçün ideyalar** fərdi və ya qrupla iş zamanı edilə biləcək kiçik tapşırıqlardır. Digər tərəfdən, bunlar, birgə fəaliyyət üçün ilk addımlar ola və **qrupla işləməyə** təkan verə bilər.

**Misallar** mətnləri müşayiət edən simvollar vasitəsi ilə göstərilir. Bəziləri daha konkret olur, digərləri isə ümumi terminlərlə ifadə olunur. Burada məqsəd oxuculara yalnız tövsiyyələrin mənasını **aydınlaşdırmaq** deyil, həmçinin onları cəmiyyətlərində bununla bağlı tədbirlər görməyə **ruhlandırmaqdır**. Bunlar hər zaman gənclər üçün bənzər nümunələr tapmaqda yaxşı mənbə rolunu oynayır.

**Xüsusi qeyd edilmiş mühüm ideyalar** mətnin əsas ideyasını daha asanlıqla dərk etməyə yardım edir. Bütün bu cümlələr plakatdakı cümlələrlə birlikdə Xartiyanın yığcam xülasəsini təqdim edir.

Xartiya müstəqil tətbiq oluna biləcək sənəd olsa belə, qrupla iş zamanı onu anlamaq daha da asanlaşar və beləcə, gənclərin bu istiqamətdə fəaliyyət göstərməyə motivasiyası artar. Bundan əlavə, demokratiya ilə bağlı bütün prinsiplər qrup daxilində daha asan dərk edilir və təcrübədən keçirilir.

Demokratiya söz azadlığı ilə bağlı olduğundan konstruktiv və açıq müzakirələr onun əsasını təşkil edir. Öyrənmə baxımından bu tipli müzakirələr tənqidi düşüncə qabiliyyətini daha çox təşviq edir və praktikada ideya və fikir müxtəlifliyinin qəbul edilməsi ilə bağlı demokratik tələblərin qoyulması imkanını yaradır. Beləliklə, bu vəsaitdə tövsiyyə edilən tapşırıqların əksəriyyəti "Hamı üçün Xartiya"nın mətnlərinə istinad edərək qrup çərçivəsində açıq müzakirələr üçün suallar təqdim edir. Bununla belə, nəzərə alın ki, bir müəllim kimi ziddiyyətli fikir və mübahisəli məsələlərlə üzləşə bilərsiniz. Xüsusi mövzular haqqında əvvəlcədən məlumat toplayın və onlara hazır olun (istinadlar aşağıda veriləcəkdir). Demokratiya və insan hüquqları mədəniyyətinin təşviqi addımbaaddım irəliləyən bir proses və uzun müddətli bir öhdəlikdir.

## Avropa Şurasının nəşrlərinə istinadlar

Növbəti səhifələrdə «Hamı üçün Xartiya»nı fəsilbəfəsil öyrənməklə hədəf qrupunuzda Xartiya ilə necə işləyəcəyinizlə bağlı bəzi göstərişlər verilmişdir. **Qrup daxilində açıq müzakirələr üçün nəzərdə tutulan tapşırıqların əksəriyyəti (kursivlə** olanlar) Avropa Şurasının dərslik və nəşrlərində müfəssəl şəkildə təsvir edilən (açıq **kölgəli kvadratlarda**) qrup çalışmaları və tapşırıqları ilə tamamlanacaqlar.




### Compasito

**İnsan hüquqları haqqında təhsil üzrə uşaqlar üçün dərslik**
www.coe.int/compasito/

15 dildə mövcud olan bu dərslik 7-13 yaş arası uşaqlara DVT/İHT tədris etmək arzusunda olan müəllimlər üçün nəzərdə tutulmuş mənbə olsa da, fəaliyyətlərin əksəriyyəti yuxarı yaş qruplarına mənsub uşaqlar üçün də uyğunlaşdırıla bilər. Kitab oxucunu insan və uşaq hüquqları ilə bağlı əsas konsepsiyalarla tanış edir və mühüm ilkin nəzəri məlumat təqdim edir. Uşaq və gəncləri yaşadıqları mühitdə insan hüquqlarını tanımaq istiqamətində həvəsləndirmək və motivasiya etmək məqsədilə kitaba 42 praktiki tapşırıq daxil edilmişdir. Siyahıda bu tövsiyələrdə yer alan fəaliyyətlərin adlarını asanlıqla tapa bilərsiniz.





## Compass

**İnsan hüquqları haqqında təhsil üzrə gənclər üçün dərslik**
*www.coe.int/compass/*

İnsan hüquqlarının tədrisi üçün nəzərdə tutulan bu dərslik mütəxəssis və ya könüllü olmasından asılı olmayaraq gənc lider, müəllim və digər təlimçilərə gəncləri şəxsi üsulları vasitəsi ilə yaşadıqları cəmiyyətlərdə insan hüquqları ilə bağlı müsbət istiqamətli maarifləndirmə fəaliyyətlərini həyata keçirmək istiqamətində maraqlandırmaq, cəlb etmək və həvəsləndirmək imkanı verən konkret ideya və praktiki fəaliyyət növlərini təklif edir. Burada insan hüquqları haqqında təhsil daha geniş şəkildə izah olunur və gənclər bu sahədə başlıca resurs hesab edilir. Dərslik öyrənənlər, onları əhatə edən mühit və onların maraqlarını xüsusi vurğulayan praktik qeyri-formal tədris yanaşmalarına əsaslanır. Bu dərslik 30-dan çox dilə tərcümə edilmişdir.

## "Demokratiyanı hiss et" adlı dərsliklər

*www.coe.int/edc*

Altı dərslikdən ibarət bu toplunun məqsədi müəllim və məktəb direktorlarına təhsilin bütün səviyyələrində DVT/İHT tədrisi prosesinin əyləncəli və interaktiv yolla təşkil edilməsində yardım etməkdir.



### DVT/İHT Cild I:

**Demokratiya naminə təshil- Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilə dair müəllimlər üçün ilkin materiallar**
Manual addressing key questions about EDC/HRE, its objectives and basic principles, and fostering a whole school approach to education for democracy and human rights.



### DVT/İHT Cild II

**Demokratik cəmiyyətdə böyümək –Demokratik vətəndaşlıq və insan hüquqlarına dair ibtidai təhsil pilləsi üçün dərs planları**
Təxminən dörd dərs planından ibarət doqquz tədris vahidinin hər biri mərhələli təlimatlardan, şagirdlər üçün iş dəftərindən və müəllimlər üçün metodiki vəsaitlərdən ibarətdir. Bütöv dərslik isə ibtidai təhsil pilləsinin son mərhələlərində (4 və 6-cı siniflər, adətən, 6-9 yaşlı şagirdlər) təhsil alan şagirdlər üçün bütün tədris ili üzrə nəzərdə tutulmuş tədris planından ibarətdir.



### DVT/İHT Cild IIII

**Demokratik cəmiyyətdə yaşamaq- orta məktəbin aşağı sinifləri üçün dərs planları**
Əvvəlki dərsliklə eyni strukturdadır, orta məktəbin aşağı siniflərində (7 və 9-cu siniflər, adətən 10-15 yaşlı şagirdlər) təhsil alan şagirdlər üçün tədrid planından ibarətdir.



### DVT/İHT Cild IV

**Demokratiyada iştirak etmək- demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilə dair orta məktəblərin yuxarı sinifləri üçün dərs planları**
Əvvəlki dərsliklə eyni strukturdadır, orta məktəbin yuxarı sinif şagirdləri (10-12 sinif, adətən, 16-17 yaşlı) üçün dərs planından ibarətdir.



### DVT/İHT Cild V

**Uşaq hüquqlarının tədqiqi – ibtidai siniflər üçün doqquz qısa layihə**
İbtidai siniflərdə (təhsilin ilk doqquz ili) uşaq hüquqlarının tədrisi vasitələri haqqında dərslik; bununla belə, digər yuxarı sinif şagirdlərindən ibarət hədəf qruplarını həvəsləndirmək üçün uyğunlaşdırıla bilər. Dərs planları və orijinal sənədlər daxil edilmişdir.



### DVT/İHT Cild VI

**Demokratiyanın tədrisi – Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil ilə bağlı nümunələr toplusu**
Məktəb və qeyri-formal təhsil müəssisələrində DVT/İHT ilə bağlı tapşırıq və nümunələr toplusudur. Bu nümunələr demokratiya və insan hüquqları ilə bağlı ümumi prinsipləri anlamaq imkanı verən misalların köməyi ilə öyrənənləri daha fəal olmağa həvəsləndirir.

Ümumiyyətlə, istinad edəcəyiniz fəaliyyətlər əsasən **Kompas və Compasito adlı dərsliklərdə verilmiş praktiki hissələrdən, həmçinin DVT/İHT Cild VI–dan** (başqa qeydlər verilməmişdirsə) olacaqdır.

### AVROPA ŞURASININ ONLAYN KİTAB MAĞAZASI

Yuxarıda qeyd edilmiş bütün dərsliklərin onlayn versiyalarına aşağıdakı linklərin köməyi ilə daxil olmaq mümkündür. Onların orijinal versiyalarını isə *book.coe.int/* linkində verilmiş onlayn kitab mağazasından almaq olar

### ƏLAVƏ NƏZƏRİ İNFORMASİYA

***Compasito,*** *Fəsil I, II və V*

***Kompas***

***DVT/İHT Cild I***
*Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilə dair müəllimlər üçün ilkin məlumat xarakterli materiallar*

### TƏLİM İMKANLARI

Təhsil üzrə mütəxəssislərin təlimi üçün Pestalozzi Proqramı:
*www.coe.int/pestalozzi/*

Gənclər sektoru üçün təlim imkanları: *www.coe.int/youth*

## Uyğunlaşdırma

Xartiyada qeyd edildiyi kimi formal, qeyri-formal və informal təhsil növləri ömürboyu təhsil prosesinin tamamlayıcı və qarşılıqlı dəstəkləyici elementləridir. Bu baxımdan dərsliklər müxtəlif kontekstlərdə, formal və qeyri-formal təhsil şəraitində, müntəzəm və ya xüsusi hallarda tətbiq oluna biləcək şəkildə tərtib edilmişdir.

Compasito və "Demokratiyanı hiss et" adlı bəzi dərsliklərdə müəyyən fəaliyyətlərin konkret yaş qrupları üçün nəzərdə tutulduğunu görmək olar. Lakin bunlar sadəcə nümunə kimi verilir, siz isə qrupu tanıyan bir müəllim olaraq bu nümunələri qiymətləndirməli və ehtiyac olarsa, onları qrupun səviyyəsinə uyğunlaşdırmalısınız. Bu zaman təkcə yaş kateqoriyası deyil, eyni zamanda ümumi təlim prosesi və mövzular baxımından qrupun inkişaf səviyyəsi kimi digər faktorlar da nəzərə alınmalıdır. Uyğunlaşdırma, həmçinin eyni qrup daxilində bir çox müxtəlif öyrənmə üsulları və fərqli öyrənmə səviyyələri ilə də əlaqəlidir. Fiziki və əqli qüsurlu gənclərin ehtiyacarına xüsusi həssaslıqla yanaşılmalı, onların konkret fəaliyyətlərə uyğunlaşması deyil, bu fəaliyyətlərin onlara uyğunlaşdırılması təmin edilməlidir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq təklif etdiyimiz fəaliyyətlərdən qrupunuza uyğunlaşdırılmış hər hansı bir fəaliyyət üçün mənbə kimi istifadə edin. Tövsiyyə olunan bütün dərsliklərdə həm də fəaliyyətlərin uyğunlaşdırılmasına dair məsləhətlər verilmişdir.

## Plakatdan istifadə

Plakatlar gənc qruplarda iş zamanı daha münasib vasitədir.  Materialın 12 cümlə ilə ümumiləşdirilməsi DVT/İHT-nin  xüsusiyyətləri və Xartiyanın məzmunu ilə bağlı fikir yürütməyin sürətli və vizual yoludur. Bu plakatdan, həmçinin qrup üzvlərinin insan hüquqları və demokratiyaya verdikləri töhfələri müqayisə etmək üçün də istifadə etmək olar. Bu məqsədlə plakat gənclərdən ibarət xüsusi qruplarla iş aparılan sinif otağının hamı tərəfindən görünən hissəsində yerləşdirilməlidir ki, "Hamı üçün Xartiya" ilə bağlı tədris zamanı ona müraciət etmək mümkün olsun.

Plakat bütün qrup üçün nəzərdə tutulmuş əyani vəsait olduğundan fərdi iş zamanı istifadə edilməsi məqsədi ilə hər şagirdə onun bir nüsxəsi verilə bilər. İş cədvəlinin  (əlavələrdə verilmişdir) surəti asanlıqla çıxarıla və qrup üzləri arasında paylana bilər. Lakin bu, plakatın dəqiq surəti deyil: plakatda göstərilənlərlə bağlı  birbaşa "bəli" və ya "xeyr"  cavabını vermək gənclərə çətin ola bilər. Bu səbəbdən, verilmiş hər bir qeydi nə dərəcədə yerinə yetirməsi ilə bağlı fərdi və ya qrup şəklində qiymətləndirmə aparmaq üçün cədvəldə barometr göstəriciləri verilmişdir.

Plakatla birlikdə iş cədvəli müxtəlif şəkildə istifadə edilə bilər:

» *"Hamı üçün Xartiya" ilə bağlı işə başlamazdan əvvəl qrupun siyahıda verilmiş hər bir qeydlə bağlı məktəbiniz və ya gənclər təşkilatınızda DVT/İHT-nin tədrisinə dair nə düşündüyünü yoxlayın. Sənəd üzərində iş başa çatdıqdan və mövzu hərtərfəli təhlil edildikdən sonra yenidən plakata müraciət oluna ,cavablar təhlil edilə və göstəricilərdə hər hansı dəyişikliyin olub-olmadığı yoxlanıla bilər.*

» *Cümlələrinin əksəriyyəti sənəddə yer alan fəsillərə uyğun ola bilər, bu səbəbdən, "Hamı üçün Xartiya" ilə bağlı mövzularla işləyərkən plakatlardan istifadə edin. Hər bir fəsil üzrə gənclərlə işlədikdən sonra ona istinad edərək və qrupla birgə işləyərək müvafiq prinsiplərin onlara nə dərəcədə aid olduğunu barometr vasitəsilə görmək olar.*

Aşağıdakı cədvəldə "Hamı üçün Xartiya"nın fəsilləri ilə əlaqədar qeyd olunan fikrin necə həyata keçirilə biləcəyi göstərilmişdir.

| **PLAKAT**<br>In our actions... | **"HAMI ÜÇÜN XARTİYA"**<br>Fəsil |
|---|---|
| Hüquqlarımıza hörmət olunur, biz də başqalarının hüqularına hörmətlə yanaşırıq | Fəsil 1. Niyə xartiya?<br>Fəsil 2. İnsan hüquqları nədir? |
| Birgə işləmək qaydalarına dair razılıq mövcuddur<br>Biz ictimai məsələlərdə iştirak edirik | Fəsil 3. Demokratik vətəndaşlıq nədir? |
| Bizim üçün əhəmiyyətli olan məsələləri öyrənirik<br>İnsan hüquqları və demokratiya haqqında öyrənirik<br>İnsan hüquqlarına hörmət edilmədikdə müvafiq tədbirlər görməyi öyrənirik | Fəsil 4. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil nə deməkdir? |
| Biz müvafiq proseslərdə iştirak etmək üçün hamıya şərait yaradırıq<br>Mübahisələri zorakılıq olmadan həll edirik və hər kəs özünü təhlükəsiz hiss edir | Fəsil 5. İnsan hüquqları və demokratiyanın prinsipləri hansılardır? |
| Gördüyümüz iş və onun necə edilməsinə dair fikir söyləyə bilirik<br>Həm hüquqlarımız və öhdəliklərimiz var | Fəsil 7. Məktəb və təşkilatlarda insan hüquqları və demokratiyaya hörmət edilirmi? |
| Ailələr, məktəblər, gənclər təşkilatları, kütləvi informasiya vasitələri və s. ilə əməkdaşlıq edirik<br>İnsan hüquqları və demokratik vətəndaşlığa dair fəaliyyətlərimizi başqaları ilə bölüşürük | Fəsil 6. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilə kimlər cəlb olunub?<br>Fəsil 8. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsili təşviq etmək üçün nə edə bilərik? |

## “Hamı üçün Xartiya”: Fəsilbəfəsil ideyalar

Tövsiyələrin bu hissəsində “Hamı üçün Xartiya”nın hər bir fəslində təhlil olunan ən münasib ideyalar həmçinin bu ideyalarla bağlı qrupunuzla necə işləyə biləcəyinizə dair bəzi fikirlər tapa bilərsiniz. Təklif olunan ideyaların əksəriyyəti “Hamı üçün Xartiya” da yer alan elementlərdir, buna görə də sözügedən sənədi bu tövsiyələrlə paralel olaraq təhlil etmək daha asan ola bilər.

### 1. Xartiyanın hazırlanması zərurəti necə yaranmışdır?

#### XÜLASƏ

Bu giriş fəslində iki müvafiq ideya yer alır:

- Sənədin **əhəmiyyəti**
- Hökumətlərin və gənclərin **rolu**

» *Birinci fəsli oxumazdan əvvəl qrupla birgə sənədin məzmununa dair gözləntiləri müzakirə edin:*
  - *Sizcə, təhsil haqqında sənəd nə üçün hamıya aid edilir?*

» *Birinci fəsli oxuduqdan sonar qrupla birgə sənədin məzmununa dair gözləntiləri müzakirə edin:*
  - *Sizcə, insan hüquqları, demokratiya və qanunun aliliyi ilə bağlı dəyərləri əks etdirən təhsil nə üçün vacibdir?*
  - *Sizcə, 47 üzv dövlət sənəddəki tövsiyyələri həyata keçirmək öhdəliyini nə üçün götürüblər?*
  - *Niyə belə bir təhsilin həyata keçirilməsini təmin etməyə məsuliyyət daşıyırıq?*

Sonuncu sualda demokratiyanın hansı məna daşıdığı fikri ilə qarşılaşa bilərsiniz ki, bu da **Fəsil 3-də** daha müfəssəl şərh ediləcəkdir. Bu halda nəzərə alın ki, sözügedən sənəd məcburi deyil, yəni hökumətlər üçün öhdəlik yox, sadəcə tövsiyə xarakteri daşıyır.

#### AVROPA ŞURASI

Bu fəsildə Avropa Şurası haqqında məlumat təqdim olunur. Quruma üzv dövlətlər haqqında məlumat əldə etmək Xartiyanın məzmununun nə dərəcədə geniş oxucu kütləsinə çatdırıldığını aydın görməyə imkan verər.

*Xəritədən (Əlavə C –də tapa bilərsiniz) istifadə edərək fərdi çap materialları və ya qrupla işləyərkən divardakı vəsaitlə mövzu üzərində işləyin.*
*İnteraktiv metod tətbiq etmək istəyirsinizsə, tapmaca hazırlayın - ölkələri qayçı ilə kəsərək şagirdlərdən onları xəritədə geri yığmalarını istəyin; bunun üçün siz hər bir şagird üçün xəritənin surətini çıxara və ya bütün qrup üçün bir böyük xəritədən istifadə edə bilərsiniz.*

### AVROPA ŞURASI HAQQINDA İNFORMASİYANI HARADAN ƏLDƏ ETMƏLİ?

İnteraktiv onlayn xəritə: www.coe.int/47countries1europe

Avropa Şurası haqqında qısa məzmunlu kitabçalar:
- Uşaqlar üçün: "**Böyük Avropa aləminə səyahət. Bir macəra**" *book.coe.int/sysmodules/RBS_fichier/admin/download.php?fileid=3206*
- Yeniyetmələr üçün: "**Avropa Şurası. Sonsuz əlaqələr imkanı**" *youth-partnership-eu.coe.int/youth-partnership/news/news_267.html*

Sonuncu nəşrdə Avropa Şurası və Avropa İttifaqı arasındakı fərqlər və münasibətlər daha dolğun və ətraflı şərh olunur.

## 2. İnsan hüquqları nədir?

### ÜMUMİ MƏLUMAT

Gənclərlə gələcək işin əsasını təşkil etdiyindən bu, ən vacib mövzulardan biridir. Çox sadə tapşırıqların köməyi ilə onları insan hüquqları haqqında məsələləri müzakirə etməyə həvəsləndirə bilərsiniz.




**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 3*
*3.3. İnsan hüquqları ağacı*
Gənclərə insan hüquqları anlayışını vizual olaraq təsəvvür etmək imkanı verən rəsm fəaliyyəti.




**Kompas,** *Fəsil 2, 2.5*
*Səhnədəcik təşkil edin*
İştirakçıların insan hüquqları anlayışı haqqında biliklərini təqdim edə biləcəkləri səhnəcik.

**Kompas,** *Fəsil 2, 2.48*
*Mən kiməm?*
Bİnsan hüquqları ilə bağlı fərdilik məsələlərini təhlil etmək imkanı verən debat qrupları, kollektiv müzakirələr, rəsm çəkmə və qrup müzakirələri

### İNSAN HÜUQULARININ XARAKTERİSTİKASI

Bu fəsildə **bölünməzlik və universallıq** kimi texniki terminlərdən istifadə etmədən insan hüquqlarının xarakteristikası təqdim olunur.

İnsan hüquqlarını heç kim əlinizdən ala bilməz.
İnsan hüquqları dünyanın hər yerində bütün insanlar üçün eynidir.

**Qeyri-müstəsnalıq** (bütün hüquqlar bərabər dərəcədə vacib və əsasdır) və qarşılıqlı əlaqəlilik (bu hüquqların tamlığı) anlayışları “Hamı üçün Xartiya”da qeyd edilmir, ancaq bu terminlərə də toxunmaq maraqlı olardı.




**Kompasito,** *Fəsil  IV*
*17. Kimlər üçün daha vacibdir?*
Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Konvensiyası ilə tanışlıq və bu hüquqların nə dərəcədə univesal, bölünməz və qarşılıqlı əlaqəli olduğunu  anlamağa yönəlmiş fikir birliyinə nail olma fəaliyyəti.




**DVT/İHT Cild VI** : Demokratiyanın tədrisi, Fəsil 3
*3.4. Hava şarında gəzinti*
Hüquqların bölünməzliyinə və insan hüquqlarının bilərəkdən pozulması hallarının diktatura rejiminə necə bənzədiyi haqqında fikir yürütmək imkanı yaradan fəaliyyət

## İNSANIN EHTİYACLARI, HÜQUQLARI VƏ İSTƏKLƏRİ

Bu fəsildə verilmiş tapşırıqlar əsasən **insanın ehtiyacları və hüquqları arasındakı əlaqələrdən** bəhs edir.



Yaxşı, təhlükəsiz və sağlam yaşamaq və böyümək üçün nəyə ehtiyacınız var?



☐ Əvvəlcədən yazdığınız ehtiyaclar siyahısına baxın və onların Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Konvensiyasında hüquqlar olaraq göstərilib-göstərilmədiyini yoxlayın.

Adətən, bu əlaqələr asanlıqla başa düşüldüyündən gənc dinləyicilərlə bu tipli mövzular müzakirə edildiyi zaman **hüquqlar, ehtiyaclar və istəklər arasındakı fərqi** müəyyən qədər vurğulamaq vacibdir.

- *Gənc dinləyicilərdən ehtiyaclarına dair tərtib etdikləri siyahını bir daha oxumalarını xahiş edin.*
- *Yazdıqları siyahıda elə bir element varmı ki, onlar onsuz da keçinə bilərlər: bunlar insan hüquqları deyil, yalnız istəklərdir. Misallar göstərərək fərqi izah edə bilərsiniz:*
    - *Hər kəsin yaxşı şəraitdə yaşamaq hüququ var, yəni qışda isti geyimə ehtiyacımız ola bilər. Halbuki, bu, ən son dəbli geyimlərə sahib olmaq arzusundan fərqlidir.*
    - *Hər kəsin bəsləyici və sağlam qida ehtiyacından irəli gələn sağlamlıq hüququ var.  Halbuki, bu, bütün gün ərzində şirniyyat yemək arzusundan fərqlidir.*




**Compasito,** *Fəsil IV, 27*
*Yeni torpağa səyahət*
Sağ qalmaq və inkişaf üçün nəyin əsas olduğunu qiymətləndirmək, istək və ehtiyacları fərqləndirmək  və insanın ehtiyac və hüquqlarını əlaqələndirmək üçün fəaliyyət




**DVT/İHT VI***: Demokratiyanın tədrisi Fəsil 3*
*3.5. Wants and needs*
İstəkləri və ya arzusunda olduqları ilə əsl ehtiyacları arasında fərqi başa düşməyə yardım edən kart oyunu

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Konvensiyasının xülasəsində bəzi anlayışlar var ki, gənc dinləyicilər ilk baxışdan onları anlamaqda çətinlik çəkə bilərlər. **Fəsil 5-də** daha çox istinadlar verildiyindən bu anlayışlar üzərində sonradan əsaslı surətdə dayanmaq olar.

- Ayrı-seçkilik > Hər kəsə aid ola bilər
- Zorakılıq və təhqir > İnsan ləyaqətinə hörmətlə yanaşın

## UŞAQ HÜQUQLARI

Xartiyada uşaq hüquqları xüsusi qeyd olunmur, ancaq onların müzakirə edilməsi insan hüquqları məsələlərinin  gənc dinləyicilərə daha müvafiq şəkildə aşılanmasına yardım edə bilər.



Gənc olduğunuza görə bunların hər hansı birinə ehtiyacınız varmı? Əgər cavab bəlidirsə, onda hansına?

**Xüsusilə uşaqlar üçün (hələ yetkin olmayanlar)** nəzərdə tutulan məqamlara istinad edərkən uşaq hüquqlarının Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Konvensiyasında (1989) qeyd edildiyi kimi ingilis dilində “üç P” adlandırılan üç ümumi kateqoriyaya ayrıldığını xatırlatmaq faydalı olardı:

- Müdafiə (protection)
- Təmin etmə (provision)
- İştirak (participation)

Bu xüsusi mülahizələrin əksəriyyəti ən zəif qrupa aid edilən azyaşlıların (18 yaşdan aşağı) təhqir, laqeydlik və istismardan **müdafiəsi** ilə əlaqəlidir. Digər qrup insanların da bir qismi üçün müəyyən inkişaf mərhələsində müvafiq xüsusi ehtiyaclara zərurət yaranır və onların müəyyən şərait, məsələn təhsil və tibbi qayığı ilə **təmin olunmasına** ehtiyac yaranır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, uşaqların hüquqları sözügedən spesifik qayğı ilə bağlı tələblər nəzərə alınmaqla formalaşır, lakin bu o demək deyil ki, böyüklər (ümumiyyətlə bütün insan övladları bu hüquqlara malik deyil. Oynamaq hüququ uşaqlar üçün müəyyən edilmiş yeganə hüquqdur ki, Ümumdünya İnsan Hüuquları Bəyənnaməsində əks olunmamışdır.  Uşaqların **iştirakı** ideyası **Fəsil 3-də** ətraflı təqdim olunur.

### UŞAQ HÜQUQLARI

- www.coe.int/children
- www.unicef.org/magic

- **Compasito**
  Fəsil I.2. “Uşaq hüquqları hansılardır?”

- **DVT/İHT Cild V:**
  Uşaq hüquqlarının öyrənilməsi, Hissə II

## HÜQUQLARIN POZULMASI

İnsan hüquqlarına hörmət olunmadığı hər hansı bir hal (dostlarınızın başına gəlmiş bir hadisə, kitablarda oxuduğunuz, televiziyada gördüyünüz, şahidi olduğunuz və s.) haqqında məlumatınız varmı? Nə vaxtsa hüquqlarınıza hörmət edilmədiyini hiss etmisinizmi? Bu halda nə etmisiniz?

» *Aşağıdakı suallarla insan hüquqlarının pozulması hallarında insanların hiss və düşüncələrini öyrənin:*
  - *Təcrübənizdə belə vəziyyətlərlə üzləşmisinizsə, kiminsə hüquqları pozulanda sizin reaksiyanız necə olmuşdur? Özünüzü necə hiss etdiniz?*
  - *Necə müəyyən etdiniz ki, insan hüquqları pozulmuşdur?*
  - *Bununla bağlı nə isə edə bilərdinizmi?*

Özlərinin və başqalarının hüquqlarına hörmət edilmədiyi təqdirdə, insanlar nə etməlidirlər?

İlk növbədə, insan hüquqlarının pozulması hallarının qarşısı alınmalıdır; məhz buna görə hüquqlarımızı bilməyimiz vacibdir. Hüquqlarımızı müdafiə etmək və hüquqların pozulması hallarını aşkara çıxartmaq bizim vəzifəmizdir; ancaq gəncləri başa salmaq lazımdır ki, təkbaşına fəaliyyət göstərmək həmişə mümkün olmur. Başqa insanların dəstəyinə və hüquqlarımızı müdafiə edəcək yerli vasitələr haqqında məlumat almağa ehtiyacımız ola bilər. Həmçinin, imkanlarımız çərçivəsində hüquqları pozulmuş insanları dəstəkləmək üçün də öhdəlik daşıyırıq. Öhdəlik mövzusu **Fəsil 3 və Fəsil 7- də** ətraflı təqdim olunur.




**DVT/İHT Cild VI:** *Demokratiyanın tədrisi, Fəsil 5*
*5.1.Bu ədalətli deyil*
Ədalət və ədalətsizlik anlayışları haqqında şəxsi mülahizələri müəyyənləşdirmək imkanı verən şəkillərin təhlili fəaliyyəti

*5.3. Şəkilli tapmaca*
Ədalətsiz münasibətə şəxsi reaksiyanı müəyyənləşdirmək imkanı verən simulyasiya oyunu




**Compasito** *Fəsil IV*
*10. Compasito müxbiri*
Gündəlik həyatda insan hüquqları haqqında məlumatları artırmaq və hüquqların necə pozulduğunu və müdafiə edilə biləcəyini başa düşmək məqsədi ilə foto reportaj fəaliyyəti




**Kompass** *Fəsil 2*
*2.18. Ön səhifə*
Qəzet üçün gənclərə tanış mövzuda insan hüquqlarının vəziyyətini əks etdirən ön səhifəni hazırlayan jurnalistlər qrupu ilə simulyasiya oyunu

## HÜQUQLARIN MÜDAFİƏSİ

İnsan hüquqlarının pozulması halları ilə üzləşdikdə insan hüquqlarının müdafiəsi mexanizmlərini təhlil etmək vacib əhəmiyyət kəsb edə bilər. Bu fəsildə bir sıra hüquqi sənədlər qeyd edilmişdir və gənc dinləyicilər maraqlandıqları təqdirdə, onldar üçün bəzi anlayışları aydınlaşdırmaq əhəmiyyətli olardı:

- hüquqi sənədlər müxtəlif format və xüsusiyyətlərə malikdir. Bu tövsiyələrin birinci hissəsində gördüyümüz kimi xartiya məcburi və qeyri –məcburi ola bilər, tövsiyə isə qeyri-məcburi xarakter daşıyır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi tarixdə böyük dönüş nöqtəsi olmasına və ümumi qəbul olunmuş beynəlxalq qanun statusu almasına baxmayaraq, “bəyannamə” yalnız niyyət bəyanatıdır və tam hüquqi qüvvəyə malik olması üçün “konvensiyalar” (həmçinin, “müqavilələr” və ya “sazişlər”) adlanan sənədlər şəklində yazılmalıdır. Avropa İnsan Hüquqları Konvensiyası Avropada insan hüquqlarını müdafiə edən tam hüquqi qüvvəyə malik ən qədim və güclü regional mexanizmdir;
- insan hüquqlarının hüquqi müdafiə sistemi XX əsrin ən böyük uğurlarından biri hesab oluna bilər, lakin qeyd etmək vacibdir ki, bəşəriyyət tarixi boyunca insanlar bütövlükdə cəmiyyətin yüksək rifahına nail olmaq məqsədilə hüquqi sistemlər yaradıblar.

Hüquqi sənədlər məhkəmələr kimi digər mexanizmlərin köməyi ilə də tətbiq və icra edilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsi gənclərin tanımaq istəyə biləcəkləri müvafiq qurumdur.




**Kompass**
*Çahal Birləşmiş Krallığa qarşı*
Avropa İnsan Hüquqları Məhkəməsində qaldırılmış real məhkəmə işi üzərində simulyasiya

### İNSAN HÜQUQLARININ İNKİŞAFI VƏ MÜDAFİƏSİ SİSTEMLƏRİ

- **Compasito**
  Fəsil I.1. “İnsan hüquqlarına giriş”

- **İnsan hüquqlarını tədqiq edin və fəaliyyət göstərin:** explorehumanrights.coe.int
  Bu layihənin məqsədi insan hüquqlarının müdafiəsi ilə bağlı Avropa sisteminin prinsipləri və onun mexanizmlərinin tətbiqi metodlarının daha yaxşı başa düşülməsini təşviq etməkdir.

- **Avropa İnsan Hüquqları Məhkəməsi**: www.echr.coe.int/ECHR/
  Broşüra və videolar, eləcə də Avropa İnsan Hüquqları Konvensiyasının sadələşdirilmiş versiyası vasitəsilə daha çox məlumat əldə edin.

## 3. Demokratik vətəndaşlıq nədir?

### DEMOKRATİYANIN XÜSUSİYYƏTLƏRİ

☐ Yaşadığınız mühit demokratikdirmi?

» *Demokratiya haqqında müzakirələr bir qrup insanı birləşdirmək üçün yeganə mümkün yollardan biri olduğundan qrupun digər dövlət idarəçiliyi formaları haqqında məlumatlılıq səviyyəsini təhlil etmək maraqlı olardı.*
- *Başqa hansı dövlət idarəçiliyi formalarını tanıyırsınız?*
- *Bu sistemlərlə demokratiya arasında hansı fərqlər var?*
- *Bu sistemlərin mövcud olduğu hansı ölkəni tanıyırsınız?*
- *Digər idarəçilik sistemlərinin mövcud olduğu sizə yaxın bir ölkə tanıyırsınızmı?*

Yaşadıqları mühitdə real olaraq mövcud olmadığı təqdirdə, demokratik vətəndaşlıq anlayışı gənclər tərəfindən başa düşülməyə bilər. Təklif edilmiş suallar şagirdləri məktəb və ya təşkilatlarının nə dərəcədə demokratik olmasını başa düşməyə həvəsləndirmək məqsədini daşıyır.

- Məktəbinizdə, komanda və ya klubunuzda birgə işləmək, yaşamaq və yaratmaq üçün riayət etdiyiniz qaydalar toplusu varmı?
- Hansı hüquq və öhdəlikləriniz var?
- Bu qaydaları kim tərtib edib?
- Onları dəyişdirmək olarmı? Olarsa, onda necə?

» *Gənclərlə işlədiyiniz yerdə hələ də “ümumi qaydalar” tərtib edilməyibsə və ya onlar yuxarı instansiyalardan gəldiyindən kifayət qədər demokratik deyilsə, onda siz hər bir qrup üzvü və özünüz  də daxil olmaqla ümumi razılıq əsasında yalnız qrupunuz üçün qaydalar tərtib etməyə başlaya bilərsiniz.*




**Compasito,** *Fəsil IV*
*2. Qrupumuz üçün konstitusiya*
Hüquq və öhdəliklər arasındakı münasibətləri başa düşməyə, hüquqların formalaşdırılması və müdafiəsində iştirak prosesini xüsusi vurğulamağa və qrup üçün razılaşdırılmış hüquq və öhdəliklər toplusunu yaratmağa  həsr edilmiş ümumi fikrə nail olma fəaliyyəti




**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 1*
*1.2. Sinifdə hüquq, öhdəlik və qaydalar.*
*Hüquq, öhdəlik və qaydalar arasındakı əlaqə (xüsusilə,  qrup kontekstində) haqqında gəncləri tədricən maarifləndirmə metodu*

## ÖHDƏLİKLƏR



İnsanlar bu qaydalara riayət etmədikdə nə baş verir?

Müzakirə üçün qoyulan sonuncu sual bəzən qayda pozuntusunun qarşısını almaq üçün müəyyən tədbirlər görməyə ehtiyac duyulduğunu, hər şeydən öncə isə bu tədbirlərin başqalarına necə təsir edə biləcəyini anlamağa xidmət edir. İnsanlar hüquqlarını bildiyi anda öz hüquqları, eləcə də başqalarının hüquqları üçün **məsuliyyət** daşımalıdırlar.



**Compasito**, *Cild IV*
*40. Qəlbi yaralayan sözlər*
Söz azadlığının sərhədlərini başa düşmək və təhqiramiz danışığın səbəb və təsirlərini müzakirə etmək imkanı yaradan fəaliyyət

## İŞTİRAK

**Seçki sistemini** daha yaxşı başa düşmək və gəncləri seçkilərdə iştiraka təşviq etmək məqsədilə onlarla bu mövzu üzərində daha dərindən işləmək maraqlı olardı.



**Compasito** , *Fəsil IV*
*13. Hər bir səs əhəmiyyətlidir*
Ədalətli və demokratik seçkilərin başa düşülməsi və demokratik səs vermə mexanizmlərini öyrənmək üçün simulyasiya

Bununla belə, olduğunuz mühit çərçivəsində demokratiyanı təhlil edərkən xüsusi qeyd etməlisiniz ki, iştirak prosesi yalnız səs vermə ilə məhdudlaşmır və daha geniş anlayışdır.

» *Şəkillər əsasında verilmiş nümunələri oxumazdan əvvəl qrup üzvlərindən iştirak hüquqlarının olub-olmamasını soruşun.*
» *Cəmiyyətdə dəyişikliklər etməyin digər mümkün yolları ilə bağlı qrupla müzakirə aparın. Nümunəni oxuduqdan sonra müzakirələri tamamlayın.*

Yadda saxlamalısınız ki, yaşlarına və özünəməxsus ehtiyaclarına baxmayaraq uşaq və gənclərin də **iştirak kateqoriyası çərçivəsində** ( “P” başlıqlı üçüncü söz) hüquqları var və bunlara aşağıdakılar daxildir:

- onlara təsir edən bütün məsələlərlə bağlı fikirlərini ifadə etmək hüququ;
- söz azdlığı;
- fikir, vicdan və din azadlığı;
- birləşmək azadlığı;
- informasiya əldə etmək azadlığı;
- cəmiyyətin mədəni həyatında iştirak etmək azadlığı.

Uşaq və gənclərin iştirak hüquqları bir o dərəcədə də nəzərə çarpmaya bilər, çünki bu hüquqlar əvvəlki sənədlərdə deyil, yalnız 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Konvensiyası qəbul edildiyi zaman təsbit edilmişdir. Yadda saxlamaq vacibdir ki, uşaq hüquqlarını (eləcə də, müvafiq öhdəliklər) hər zaman **uşaqlarda inkişaf edən bacarıqlara** uyğun olaraq nəzərə alınmalıdır.




**DVT/İHT Cild VI:** *Demokratiyanın tədrisi, Fəsil 7*
*7.8. Demokratiyada iştirak yolları*
*Siyasi iştirakın mümkün formalarının təhlili ilə bağlı müzakirə fəaliyyəti*




**Compasito,** *Fəsil IV.*
*37. Hansı mövqedəsiniz?*
*İştirakçıların sinif otağının müəyyən hissələrində dayanaraq fikirlərini izah edib əsaslandırmaqla bağlı müzakirə fəaliyyəti. Bu fəaliyyət istənilən mövzuya uyğunlaşdırıla bilər, bununla belə, müzakirə üçün təklif olunan cümlələr uşaq və gənclərin iştirak hüququ ilə bağlıdır.*




**Kompas**
*Pillələrdə*
İştirakçılara müəyyən rollar verilir və onlar iştirak etmə anlayışının mənasını və yerli cəmiyyətdə öz iştiraklarının artırılması yollarını müzakirə edirlər.

*İki şəhərin nağılı*
Yaşamaq istədikləri şəhər və arzuladıqları məişət xidmətləri ilə bağlı səsverməni simulyasiya edən stolüstü oyun. Bu oyun sosial həmrəylik, vergilərin ödənilməsi və yerli demokratik dəyərləri əks etdirən məsələləri əhatə edir.

## 4. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil nədir?

### TƏHSİL: HÜQUQ VƏ VASİTƏ

Təhsil bir hüquq, eyni zamanda digər hüquqların mümkünlüyünü təmin edən bir vasitədir.

» *Bu fikirləri müzakirə edin:*
- *Ehtiyaclarınızla bağlı tərtib etdiyinz siyahıda (***Fəsi 2-də***) "təhsili" qeyd etmisinizmi?*
- *Əgər "təhsil" yoxdursa, bu halda onunla bağlı digər anlayışlar (məsələn, öyrənmək, yeni şeylər öyrənmək, oxumaq, məlumat toplamaq və s.) yazılıbmı?*
- *Nə üçün təhsilin insan hüquqlarından biri olduğunu düşünürsünüz?*
- *Təhsil sizə nə fayda verə bilər?*
- *Təhsil alma prosesində iştirak edən müxtəlif bədən hissələrin əsk olunduğu 12-ci səhifədəki şəkildə verilən ideyaları oxumazdan əvvəl təhsilin bunları edə bilməsi imkanı haqqında düşünmüsünüzmü?*




**Kompas,** *Fəsil 2, 2.5*
*Hamı üçün təhsil?*
Bu fəaliyyət çərçivəsində iştirakçılar onlara verilmiş kartları cüt-cüt tutuşduraraq təhsil hüququna hörmət prinsipini təhlil edir, həmçinin bütün dünyada təhsil imkanlarının qeyri-bərabərliyi haqqında düşünürlər.

## DVT/İHT

Bu fəsildən etibarən DVT/İHT abreviaturalarından tez-tez istifadə olunacaqdır. Əgər gənclərin hələ də bu abreviaturaları anlamadığını hiss etsəniz, onda bir neçə dəqiqə sərf edərək onlara bu terminləri izah edə bilərsiniz.

» *Qrupdan soruşun: DVT/İHT abreviaturaları başqa hansı sözləri ifadə edə bilər?*

İnsan hüquqları və demokratiya arasında güclü qarşılıqlı əlaqə olduğundan demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil ümumi məqsədə xidmət edir. Bu fərq məzmun baxımından o dərəcədə az nəzərə çarpandır ki, bu mərhələdə gənclər üçün bir o qədər də aydın olmaya bilər. Ona görə də “Hamı üçün Xartiya” -da onlar eyni anlayış kimi nəzərdən keçirilir.

## DVT/İHT – nin XÜSUSİYYƏTLƏRİ

Mətn DVT/İHT –nin öyrənənlər üçün vacib olan məsələləri şərh etməsi ideyasını təqdim edir.

» *Bu ideyanı müzakirə edin:*
  - *Sizin üçün nələr vacibdir?*
  - *Burada onları təhlil edirikmi?*
  - *Sizcə, təhsilinizin bir hissəsi kimi onları bu prosesə necə daxil etmək olar?*

Tədris prosesinin üç aspekti  nəzərə alındığından DVT/İHT **kompleks yanaşmaya** malikdir: bacarıqlar (məcazi mənada desək, şəkildəki əllərdə yerləşdirilmiş), davranışlar (məcazi mənada desək, qəlblərdə olan) və bilik (məcazi mənada desək, başda olan). Bu baxımdan, insan hüquqları və demokratik vətəndaşlıq sahəsində səriştəli olmaq yalnız bu terminlərin əsasında dayanan nəzəriyyəni bilməkdən daha artıq məna kəsb edir. Fikir verin ki, hər üç dərslikdə təklif olunan fəaliyyyətlər bütövlükdə iştirakçılara yönəlmişdir.

» *Bu konsepsiyaları daha dərindən təhlil etmək məqsədi ilə qrup üzvlərinə DVT/İHT –nin heç də hər zaman məlumatlı olmadıqları üç aspekt çərçivəsində işlədiklərini başa salmağa çalışın.*
  - *Gündəlik həyatları haqqında düşünərək aşağıdakı məsələləri müəyyən etmələrini istəyin:*

| İNSAN HÜQUQLARI (İH) | DEMOKRATİK VƏTƏNDAŞLIQ (DV) | Səriştələr |
|---|---|---|
| İH haqqında nə bilirsiniz | DV haqqında nə bilirisniz | BİLİK |
| İH praktikada necə tətbiq edirsiniz | DV-ni praktikada necə tətbiq edirsiniz | BACARIQLAR |
| İH-ya hörmət edildiyini hiss etdiyiniz bir vəziyyət | DV-yə hörmət edildiyini hiss etdiyiniz bir vəziyyət | MÜNASİBƏTLƏR |

» Diqqət yetirin ki, bu fəsillə bağlı plakatda verilmiş cümlələrdən biri əsasən biliklə [“Fəaliyyətlərimiz çərçivəsində biz insan hüquqları və demokratiya haqqında öyrənirik”] bağlıdır.
  - *Bu cümlə sizi əhatə edən reallığı əks etdirirmi?*
  - *Sizcə, siz insan hüquqları və demokratiyanı həm də bacarıqlar ÜÇÜN və münasibətləriniz VASİTƏSİLƏ öyrənirsinizmi?*

### DVT/İHT-nin TƏDRİSİ METODİKASI

- **Compasito**
  Uşaqlar üçün insan hüquqları haqqında təhsil (səhifə 25-28)
  Praktiki təlim (səhifə 38-40)
- **DVT/İHT Cild I:** Demokratiya naminə təhsil. Bölmə 3
  Tapşırıqlara əsaslanan təlim (səhifə 46-47, 124 və 132)

## 5. İnsan hüquqları və demokratiyanın əsas prinsipləri hansılardır?

### PRİNSİPLƏRƏ HÖRMƏT

Qrupunuzda bu prinsiplərə hörmət edilirmi?




Beş mövzuya bölünən bu fəsildə DVT/İHT –nin əsas prinsipləri və dəyərləri müzakirə olunur. Gənclərin qrupda bu prinsiplərin hər birinin nə dərəcədə mövcud olduğunu öz nöqteyi-nəzərlərindən qiymətləndirmələri məqsədi ilə barometr nəzərdə tutulmuşdur.

- *Gənclər arasında fərdi fikir mübadiləsi apardıqdan sonra onları müzakirə edərək aralarında nə kimi fərqlərin olub-olmadığını müəyyən edin.*
- *Fikir ayrılığı olduqda və ya ümumi rəy dəyərlərin "heç olmadığını" ifadə edərsə, aşağıdakıları müəyyən edin:*
  - *Nə üçün belə düşünürsünüz?*
  - *Hər hansı konkret nümunə gətirə bilərsinizmi?*
  - *Qrup kimi barometrin ən aşağı səviyyəsinə düşməmək üçün nə etmək mümkündür?*
- *Qrupun əksəriyyəti bu dəyərlərin "mövcud olduğunu" düşünürsə:*
  - *Bu dəyərlərin mövcud olmadığı başqa yerlər tanıyırsınızmı?*

Hər bir prinsipi ətraflı şəkildə əhatə etmək istəyirsinizsə, onda bir neçə fəaliyyət formasına müraciət edə bilərsiniz.

### DƏYƏRLƏRİN MÜXTƏLİFLİYİ




**DVT/İHT Cild VI:** Demokratiyanın tədrisi, Fəsil 1
*1.4. Gül dəstəsi*
Qrupda hər kəsin özünəməxsus və fərqli olduğunu, eyni zamanda qrupun ümumi gücünə verdiyi töhfəni qiymətləndirmək imkanı yaradan bədii fəaliyyət

Ölkənizdə əksəriyyətdən fərqli olan insanları mətbuat necə təqdim edir?
Sizcə, mətbuat bu insanları necə təqdim etməlidir?




**Compasito,** *Fəsil IV*
*38. Mənim arxamda kim var?*
Stereotipləşdirmə, qərəzli mövqe və ayrı-seçkilik arasında olan əlaqəni müzakirə etmək və stereotiplərin və qərəzli mövqenin artırılması prosesində mətbuatın rolunun təhlil edilməsi ilə bağlı tapmaca oyunu

"Canlı kitabxanalar" adi kitabxanalar kimi fəaliyyət göstərir, oxucular buraya gələrək müəyyən "kitab"ı götürüb oxuduqdan sonra onu kitabxanaya qaytarır. Bu iki kitabxana arasında yalnız bir fərq var: canlı kitabxananın kitabları insanlardır! Bu insanlar tez-tez ayrı-seçkiliyə məruz qalan qruplara məxsusdurlar. Kitablar və oxucular bir-biri ilə danışırlar. Beləliklə, oxucuların real insanları tanımaq və onlar haqqında daha öncə malik olduqları mənfi fikirləri dəyişdirmək şansları var.

» *Canlı kitabxana timsalında verilmiş nümunə və bir qaraçının sözləri dərin müzakirələrə gətirib çıxara bilər:*
  - *Şəhərimizdə "canlı kitabxana" yaratmalı olsaq kimi dəvət etməliyik? Bizə yaxın olan hansı qruplar ayrı- seçkilikdən əziyyət çəkir?*
  - *Qaraçılar haqqında düşünəndə ağlınıza hər hansı bir ideya gəlirmi?*
  - *Belə qruplardan olan hər hansı bir şəxslə və ya qaraçı ilə rastlaşmısınızmı?*
  - *Onları daha yaxından tanımaq üçün hansı sualları verərdiniz?*




**Kompas,** *Fəsil 2*
*İrqçiliyə qarşı cavab tədbiri*
Xüsən, qaraçılara qarşı irqçilik və qərəzli münasibəti, məktəb və digər tədris müəssisələrində irqçiliklə mübarizə yollarını təhlil etmək imkanı yaradan ciddi bir hadisənin simulyasiyası vasitəsi ilə rol oyunu

## HƏR KƏS DAXİLDİR

Nə vaxtsa özünüzü qrupdan təcrid olunmuş hiss etmisinizmi? [...]

» *Mövzu şəkillərlə ifadə olunmuş misalları müzakirə etməklə başlana bilər.*
  - *Siz və ya tanıdığınız bir şəxs oxşar hadisələrlə üzləşiblərmi?*
  - *Onların yerində olsaydınız, nə edərdiniz?*
  - *Belə hadisələrlə üzləşməmək üçün digər yoldaşlarınız nə edə bilərdilər?*

Sinifinizdə və ya qrupunuzda özünü təcrid edilmiş hiss edən kimsə varmı? Nə üçün?

» *Qrupda belə təcrid olunma hisslərinin olmaması üçün nə etmək lazım olduğunu müzakirə edin.*

Sizi əhatə edən mühitdə onun üzvü hesab edilməyən kimsə varmı?
Hər bir kəsin cəmiyyətə cəlb edilməsinin mümkünlüyünü təmin etmək üçün nə dəyişməlidir?

» *Qrupla cəmiyyətdən təcrid olunmanın mümkün səbəblərini, eləcə də təcrid olunmanın qarşısını almaq üçün alternativ yolları təhlil edin.*

Məktəbinizdə və ya təşkilatınızda oğlanlara və qızlara fərqli münasibət göstərilirmi?

Bu bölmədə verilmiş nümunələrin gender ayrı-seçkiliyi və sosial-iqtisadi faktorlara əsaslanan ayrı-seçkiliklə bağlı olduğunu nəzərə alaraq müzakirələri davam etdirmək istəyirsinizsə, mövzu haqqında xüsusi fəaliyyətlərə müraciət edə bilərsiniz. specific activities on the topic.




**Compasito,** *Fəsil IV*
*35. Nə istəyirəm və nə edirəm*
Gender stereotiplərinin təsirlərini anlamaq üçün müzakirə fəaliyyəti

*7. Oğlanlar ağlamır*
Gender stereotiplərini və gender bərabərliyini müzakirə etmək üçün tapşırıq




**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 4*
*4.6. Hamımız bərabərik, ancaq bəziləri digərlərindən daha çox bərabərdir*
Sosial-iqtisadi faktorlara əsaslanaraq ayrı-seçkiliyin səbəblərini müəyyənləşdirmək və təhlil etmək üçün təsviri və düşündürücü tapşırıq

## HƏR KƏSƏ BƏRABƏR ŞANSLAR VERİN

Birləşmiş Krallıqda fəaliyyət göstərən yerli gənclər təşkilatımızda Vilyam adlı bir oğlan var [...]

» Vilyamla bağlı hadisəyə istinad edərək müzakirələri daha da genişləndirə bilərsiniz:
  - *Vilyam kimi eyni çətinlikləri olan başqa bir gənc tanıyırsınızmı? Vilyam kimi onlar da qrupun bir üzvü olmaqdan məmnundurlarmı?*
  - *Öyrənməklə bağlı çətinliyi olan hər hansı bir şəxs bizə qoşulsa idi nə edərdik?*

Bu nümunə **fərqli bacarığı olan və ya xüsusi ehtiyaclı** şəxslərin qrupa qoşulmasına aid olduğundan mövzunu daha geniş təhlil etmək üçün bir neçə fəaliyyətdən istifadə edə bilərsiniz; bu fəaliyyətlər gənclərin aşağıda göstərilən xəritə tapşırıqlarına hazır olmasında sizə yardım edəcəkdir.




**Compasito**, *Fəsil IV*
*5. Bağlı gözlər*
Fiziki qüsurları olan gənclərin xüsusi hüquqlarını və ehtiyaclarını başa düşməyə imkan verən simulyasiya
**Compasito**, *Fəsil IV*
*28. Sakit orator*
Eşitmə problemi olan insanların çətinliklərini və müsbət ayrı-seçkilik ehtiyacını başa düşmək üçün rol oyunu




**Kompas,** *Fəsil 2*
*Bacarıqları gör!*
Fiziki qüsuru olan insanlara qarşı mərhəmət hissinin təşviq edilməsinə aid praktiki fəaliyyət. Burada təhlil olunan məsələlər fiziki və əqli qüsurlu insanların cəmiyyətə inteqrasiya prosesində üzləşdikləri maneələr və bu insanların hüquqlarının ümumi insan hüquqları kimi başa düşülməsi proseslərini əhatə edir.

☐ Ətrafınızı öyrənin. Xəritədə sevdiyiniz yerləri qeyd edin [...]

- *Cəmiyyətlərində mövcud olan maneələrin əhatə dairəsini müəyyənləşdirmək məqsədi ilə qrup üzvlərinin araşdırma aparmalarını xahiş edin.*
- *Nəticələrin nəzərə alınacağı yerdə təhlil edilməsini təmin edin:*
  - *Xüsusi ehtiyacları olan insanlarla işləyən və dəyişiklikləri tələb edə biləcək bir assosiasiya;*
  - *Birbaşa şəhər şurasında vətəndaşların qayğısına qalan qurum*

## MÜXTƏLİFLİK, STEREOTİPLƏR VƏ QƏRƏZLİ MÜNASİBƏT

Yuxarıda verilən xüsusi misallara baxmayaraq, fərq və müxtəliflik haqqında ümumilikdə danışmaq da təqdirəlayiq olardı. Bu mərhələdə stereotiplər və qərəzli münasibət üzərində də işləmək olar.

- *Kiminsə fərqli hesab edilməsinin mümkün səbəbləri haqqında müzakirə aparın. Əvvəlki paraqraflarda müzakirə edilməmiş digər səbəbləri göstərməyə çalışın.*




**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 4*
*4.5. Hamımızın qərəzli münasibətləri var*
Digər insanlar haqqında stereotipləri və qərəzli münasibəti təqdim və müzakirə etmək üçün oyun
**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 5*
*5.2. İstisna*
Ayrı-seçkilik mövzusunu təqdim etmək oyunu






**Compasito** *(Fəsil IV. 29)* və **Kompas** *(Fəsil 2)*
*Bir addım irəli*
Fərqli olanlara qarşı mərhəmət hissini təşviq etmək və cəmiyyətdə imkanların qeyri-bərabərliyi haqqında maarifləndirməni gücləndirmək üçün simulyasiya

## İNSAN LƏYAQƏTİNƏ HÖRMƏT EDİN

Hər kəsin bərabər olması ideyası üzərində işləmək:




**DVT/İHT Cild VI** *: Demokratiyanın tədrisi*
*3.2. Kəndir*
İnsanların ümumi mənşəyi və tarixini vizual olaraq təsəvvür etmək fəaliyyəti.

Məktəbinizdə və ya qrupunuzda hər kəs özünü təhlükəsiz hiss edirmi?

Təhlükəsiz hiss etmə ilə bağlı cavablar açıq şəkildə müzakirə olunarkən, xüsusilə qrupda və ya bəzi gənclər arasında gizli hədə-qorxu halları baş verdiyi təqdirdə, cavablar heç də hər zaman səmimi olmaya bilər. Müzakirələrin əvəzinə  müəyyən təcrübi fəaliyyətlər bu mövzunu təhlil etmək üçün daha münasib ola bilər.




**Compasito,** *Fəsil IV*
*8. Hədə-qorxu səhnələri*
Müxtəlif hədə-qorxu hallarını və ona qarşı müxtəlif cavab tədbirlərini daha dərindən anlamağa dair müzakirələr.




**Kompas,** *Fəsil  2*
*Alternativ variantlarımız varmı?*
İnsanlararası zorakılıq və hədə-qorxu hallarını təhlil edən rol oyunu

## SÜLH ŞƏRAİTİNDƏ YAŞAMAQ

Qrup və ya sinfinizin üzvləri arasında münaqişəni hecə həll edirsiniz?

» *Münaqişələri necə həll etmələri ilə bağlı cavabları qrupla birgə müzakirə edin:*
  - *Hazırda münaqişələrin həlli üçün istifadə etdiyiniz yollar"sülh şəraitində yaşamaq" prinsipinə uyğundurmu?*
  - *Hazırda münaqişələri həll etmək üçün istifadə etdiyiniz metodların digər alternativləri varmı?*
  - *Misallarda izah olunanlara bənzər hərəkətləri nümayiş etdirən hər hansı məktəb/ qrup tanıyırsınızmı?*
  - *Qrupunuzda buna bənzər tədbirə ehtiyac varmı? O necə təşkil oluna bilər?*




**Kompas,** *Fəsil 2*
*Elektrik stansiyası*
Gündəlik həyatımızda rastlaşdığımız ümumi zorakılıq halları haqqında düşünün, sonra onların həlli və problemlərin çözümü üçün yaradıcı yollar tapmağa çalışın.




**Compasito,** *Fəsil IV*
*21. Zorakılığı aradan qaldırılması yollarının təsviri*
Münaqişələrin qeyri-zorakı yollarla həllinə dair səhnəcik .

Bu iki fəaliyyət “**İnsan ləyaqətinə hörmətlə yanaşın**” başlıqlı bölmədə müzakirə edilmiş zorakılıq və “**Sülh şəraitində yaşamaq**” bölməsindəki münaqişələrin həlli anlayışları arasında əlaqə yaratmaq üçün istifadə edilə bilər. Bundan əlavə, sonuncu fəaliyyət  “Hamı üçün Xartiya”nın 18-ci səhifəsində hədə-qorxu ilə bağlı nümunədə göstərildiyi kimi səhnəcik şəklində təşkil olunur.




**Compasito,** *Fəsil IV*
*30. Naringi üçün döyüş*
Bu fəaliyyət münaqişəli vəziyyətlərdə ünsiyyət yaratmaq ehtiyacı ilə bağlı müzakirəni təşviq etmək və münaqişənin həlli üçün strategiyalar üzərində düşünmək məqsədi daşıyır.

*11. Korjik (“Sezam küçəsi” animasiya filmindən personaj)*
Bərabər hüquqlar və danışıqlar və sülh prosesi haqqında qrup müzakirələri




**DVT/İHT Cild VI :** *Demokratiyanın tədrisi, Fəsil 8*
*8.2. Münaqişələrin həlli prosesinə struktur yanaşma*
Altı mərhələdə münaqişənin həlli texnikasını öyrənməyə dair tapşırıqlara əsaslanan çalışmalar

*8.6. Cəzalandırma və münaqişənin müsbət həlli arasındakı fərq*
Münaqişələrin həlli istiqamətində gənclərin yaradıcılıq potensialını inkişaf etdirməyə və onları bu mövzu ilə bağlı qərar qəbul etmə prosesində iştirak etməyə təşviq edən tapşırıq. Bu, çox asanlıqla həmyaşıd –vasitəçi nümunəsi ilə əlaqələndirilə bilər.

## 6. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil prosesinə kimlər cəlb olunurlar?

### HAMI ÜÇÜN TƏHSİL

DVT/İHT hamı üçündür və həyatımız boyu davam edir.

» *Gənclərin təlim prosesi haqqında anlayış və bilikləri ilə bağlı fikir söyləməyə kömək edə biləcək bəzi suallar:*
  - *Məktəbi bitirdikdən sonra planlarınız  nədir?*
  - *Bundan sonra öyrənməyi (qeyd:“təhsil almağı” yox “öyrənməyi”) dayandırmağı planlaşdırırsınızmı?*
  - *İndi yalnız məktəbdə öyrənirsiniz?*
  - *Ətrafınızda olan yetkinlər hər şeyi bilirmi? Onlar öyrənməyə hələ də davam edirmi?*

### TƏHSİLİN MƏNBƏLƏRİ

☐ İnsanlar harada öyrənə bilərlər? Siyahını tamamla: məktəbdə, kitabxanada, evdə ...



***Compasito,*** *Fəsil IV*
*1. Biliyin əsasları*
Təhsil ala biləcəkləri məkanlar və təhsil üsulları haqqında məlumatlılığı artırmaq, eləcə də təhsil hüququnu müzakirə etmək üçün tapşırıqlar hazırlamaq

» *Fəsli oxumamışdan əvvəl gənclərin müxtəlif təhsil mənbələri haqqında fikir söyləmələri üçün aşağıda təsvir olunmuş mərhələləri izləyin (bu mərhələlər yuxarıda Composito dərsliyində sadalanan fəaliyyətə əsaslanıb).*

*Birinci addım: Gənclərdən fiziki və əqli bacarıqları (bilik, bacarıq, münasibətlər) da daxil olmaqla ən çox bildikləri və ən yaxşı bacardıqları şeylər haqqında düşünmələrini istəyin. Əgər bu siyahı çox uzun olarsa, onlardan ən vacib hesab etdikləri 10 elementi seçmələrini xahiş edin. Qeyd etdikləri arasında demokratiya və insan hüquqları prinsipləri ilə əlaqənin olub- olmadığına diqqət yetirmələrini söyləyin. Belə bir əlaqə yoxdursa, onları siyahılarına bu barədə ən azı bir element əlavə etmələri üçün həvəsləndirin.*

*İkinci addım: Yazdıqlarını və onları necə oyrəndikləri haqqında düşünün. Onlardan hər elementin ardınca bunları oyrənməkdə onlara yardımçı olan məkan, şəxs, müəssisə və ya situasiyanı yazmalarını istəyin.*

*Üçüncü addım: Gənclərə aşağıdakı suallarla müraciət edin:*
- *Bacardığınız şeyləri tapmaq asan idimi?*
- *İnsan hüquqları və demokratiya prinsipləri baxımından tapşırıq daha çətin oldumu?*
- *Onları haradan öyrəndiyinizi hər zaman yada sala bildinizmi?*
- *Xatırladığınız məlumatların hamısını eyni şəxsdən və ya eyni yerdə öyrənmisinizmi?*

Bu çalışmanı etdikdən sonra birinci fəslin ilk səhifəsində təklif olunan siyahını tamamlamaq daha asan olar.

☐ 20 ci səhifədə yerlər və insanlar haqqında olan siyahıya qayıdın və onu bu fəsildə qarşınıza cıxan yeni ideyalarla tamamlayın.

» *Bu sənəddə qarşıya çıxan ideyalar sırasına aşağıdakılar daxil ola bilər: məktəb (məktəbəqədər təhsil müəssisəsi, ibtidai və orta məktəb), universitet, QHT-lər, gənclər təşkilatları, kitabxana, qonşular, media, valideynlər, tərbiyəçilər, dostlarımız...*

DVT/İHT-nin harada tədris edilməsinin zəruriliyi baxımından təhsil verilən yerlərin müxtəlifliyini təsəvvür etmək faydalı olardı. Xartiyaya əsasən bütün bu müəssisələr nəzərdə alınmalıdır, çünki onların hər biri DVT/İHT prosesində maraqlı tərəflərdir və bu prosesə cəlb olunmalıdırlar. Bundan əlavə təlim prosesinin necə həyata keçirilməsi barədə gənclər nə qədər çox məlumatlı olarsa, onlar müxtəlif təlim imkanlarından daha səmərəli yararlana bilərlər.

## BİRGƏ QARŞILIQLI TƏHSİL

Nə vaxtsa özünüzü öz qrupunuzun və ya məktəb yoldaşlarınızın təlimçisi kimi düşünmüsünuzmü? Bu, sizin və digər insanların həyatının inkişafına nece kömək edə bilər? Əvvəlki fəsillərdə DVT/İHT sahəsində öz dostları ilə çalışanların məhz gənclər olması kimi hər hansı ilhamverici nümunələrlə qarşılaşmısınızmı?

- **Fəsil 3** - *də olan nümunərə istinad edin:*
  - *Portuqaliyada tələbələr tərəfindən oynanılan teatr tamaşası (səh.18)*
  - *İspaniyada münaqişənin həlli prosesinin vasitəçiləri kimi fəaliyyət göstərən tələbələr (səh. 19)*

- *Birgə qarşılıqlı təhsil imkanları üzərində düşünün:*
  - *Öyrənməyiniz üçün qrup vacibdirmi?*
  - *Buna görə üzərinizə məsuliyyət götürə bilərsinizmi?*
  - *Dostlarınız arasında DVT/İHT-ni inkişaf etdirməyin hansi  digər yollarını düşünə bilərsiniz?*

BİRGƏ QARŞILIQLI TƏHSİL və TƏDBİR GÖRMƏK

**Compasito**
Bütun fəaliyyətlərdə siz "**Fəaliyyət üçün ideyalar**" bölməsini görəcəksiniz. Onlardan bəzilərinə birgə qarşılıqlı təhsil ideayaları daxildir.

## 7. Məktəb və təşkilatlar insan hüquqları və demokratiyaya hörmətlə yanaşırlarmı?

### PRİNSİPLƏR

Sizcə, sizi əhatə edən mühitdə (məktəbiniz, təşkilatınızda, idman klubunuzda və s.) DVT/İHT ilə bağlı dəyər və prinsiplərə hörmət edilirmi?

- *Cavablarınızı qrupla bolüşün. Bu cavabları* **Fəsil 5 -də** *də barometrlərlə  olan əvvəlki tapşırıqla əlaqələndirin.*
  - *Hansı maneələr var  və onlar necə aradan qaldırıla bilər? ( Cavab HEÇ VAXT və ya NADİR HALLARDA olduqda )*

Məktəb və ya gənclər təşkilatlarının insan hüquqları və demokratiya prinsiplərini təşviq etmək üçün  həyata keçirdiyi və ya keçirməli olduğu  xüsusi tədbirlərə misal gətirə bilərsinizmi?

Birinci tapşırıq qrupunuzda insan hüquqları və demokratiya prinsiplərinin  mövcudluğunu ümumi əks etdirsə də, hansı fəaliyyətlərin təəssüratlarımızı daha da möhkəmləndirəcəyini araşdırmaq maraqlı olardı.

- *Göstərilən nümunəni daha dərindən araşdırın:*
  - *Assosiasiyamıza üzv olma və ya məktəbimizə qoşulma şərtləri hansılardır?*
  - *Bu şərtlər insan hüquqları və demokratiya prinsiplərinə hörməti ehtiva edirmi?*

### DEMOKRATİYA və İNSAN HÜQUQLARININ TƏTBİQİ

Məktəb və ya təşkilatınızda həyata keçirilən tədbirlərlə bağlı fikirləriniz nəzərə alınırmı?
Qrupunuzda və ya sinifinizdə qərarlar necə qəbul edilir?
Bunları daha da təkmilləşdirmək olarmı? Necə?

- *Bu suallar qrupda demokratik prinsplərlə yaxından bağlıdır. Onları* **Chapter 3***, səh 9-da verilmiş suallar haqqında müzakirələrlə əlaqələndirin.*
  - *Qərarlar qrupdakı mövcud qaydalara uyğun qəbul edilirmi?*

## HƏR KƏSİN CƏLB OLUNMASI və ÖYRƏNƏNİN FƏAL İŞTİRAKI

Nəyi öyrəndiyinizlə bağlı qərarı kim verməlidir?

Bu bölmənin maraqlı tərəflər haqqında olan əvvəlki bölmə ilə sıx əlaqəsi olmasına baxmayaraq, burada DVT/İHT ilə bağlı olan hər bir müəssisə daxilində bütün aidiyyatı tərəflərin - təlimçilər, digər işçilər, öyrənənlər və qərar qəbul edənlərin bu prosesə cəlb edilməli olduğu faktına diqqət etmək vacibdir.



**Kompas,** *Fəsil 2, 2.23*
*Qoy bütün səslər duyulsun*
Təhsilin mənası və onun insanların ehtiyaclarına necə cavab verməsi, həmçinin qərar vermə proseslərində iştirakla bağlı kiçik qruplarda və plenar iclaslarda müzakirələr

- *Qrupunuzun öyrənənə yönəlmiş pedaqogikanın əhəmiyyəti barədə məlumatlı olub-olmadığını müəyyən edin:*
  - *Sizcə, təlim prosesində sizin də rəyiniz nəzərə alınırmı? Niyə?*
  - *Rəyinizin nəzərə alınmasını necə təmin etmək olar?*

☐ Məktəb və ya təşkilatınızda tələbə şurası və ya müvafiq strukturların mövcud olub-olmadığını yoxlayın.

- *Tələbə şuraları anlayışını müzakirə edin:*
  - *Təhsiliniz haqqında yerli səviyyədə qərarlar qəbul etmək məqsədi ilə demokratik yolla seçilmiş orqanın (tələbə şurası və ya gənclər təşkilatında buna bənzər bir orqanın) mövcudluğunun mənfi və ya müsbət tərəflərini nəzərdən keçirin.*
  - *Sizin üçün ən yaxşı şura forması necə olmalıdır?*
  - *Fikrinizin nəzərə alınması üçün o necə təşkil olunmalıdır?*

## ÖHDƏLİKLƏR

Sinifdə bizimlə eyni fikri bölüşənlərin olması faktı ilə razılaşsaq [...]

Sonuncu nümunə iştirak zamanı öhdəliyin zəruri olması ideyası əks olunur, bu məsələləri "**Hamı üçün Xartiya**"-nın **Fəsil 2** və **Fəsil 3 -də verimiş**, sualları ilə əlaqələndirmək olar.

- *Aşağıdakı sualları verməklə daha ətraflı müzakirələr aparın:*
  - *Qrupda (və ya bütün məktəbdə/təşkilatda) öhdəliyi kim daşıyır?*
  - *Bu öhdəliklər hansılardır?*

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DEMOKRATİK İDARƏETMƏ

**DVT/İHT I CİLD: Demokratiya naminə tədris, Bölmə 1**
1. Siyasət, demokratiya və məktəblərin demokratik idarəolunması

**Məktəblərin demokratik idarəolunması:** www.coe.int/edc

## 8. Vətəndaşlıq və insan hüquqları haqqında təhsili necə təşviq etmək olar?

“Hamı üçün Xartiya”–nın sonu DVT/İHT-nin necə təkmilləşdirilə biləcəyinə dair xüsusi fikirlərlə yekunlaşır. Lakin mövzu boyu, xüsusilə də bəzi mövzular üzərində daha ətraflı müzakirələr aparmısınızsa, güman ki, qrup yeni ideyalar ortaya çıxarmışdır.

### ƏMƏKDAŞLIQ

Bu Xartiya əməkdaşlığın nə dərəcədə əhəmiyyətli olduğunu təsdiqləyən mühüm sübütdur…]

» *Beynəlxalq əməkdaşlığı gənclərə daha aydın şəkildə izah etmək üçün onları özlərinə tanış olan nümunələr üzərində düşündürməyə çalışın.*
  - *Tələbələr arasında hər hansı beynəlxalq təcrübə və ya mübadilə (məktəblərin qardaşlaşması, dil mübadiləsi, musiqi mübadiləs və s. ) olduğu haqqında məlumatınız varmı?*
  - *Məktəbdənkənar hansı əməkdaşlıq və ya mübadilə imkanları mövcuddur?*
  - *Sizcə, digər ölkələrdən olan insanları tanımaq və onların yaşayış tərzini bilmək nə üçün vacibdir ?*
  - *Sizcə, ölkənizdə yaşayan insanların, eləcə də digər ölkələrdə olan insanların hüquqlarının nə səviyyədə olduğunu bilmək niyə vacibdir?*

Sonuncu sual qloballaşma kontekstinə çox uyğun olan və hüquqlarımız və digərlərinin hüquqları arasında məsuliyyətlə bağlı daha öncə qeyd edilmiş ideya ilə asanlıqla əlaqələndirilə bilər.




**DVT/İHT VI Cild**: *Demokratiyanın tədrisi, Fəsil 4*
*4.8. Qlobinqo: “İnsan dünyanın bir parçasıdır”*
*İnsanın dünyanın pir parçası old uğunu göstərən Bingo oyunu*




**Kompas**, *Fəsil 2, 2.8.*
*Ehtiyatlı olun, sizi izləyirik*
*Pambıq köynək istehsalının qlobal səviyyədə sosial, iqtisadi və ekoloji təsirlərini oyrənmək üçün fəaliyyət*

Məktəbdənkənar fəaliyyətlər çərçivəsində gənclər arasında beynəlxalq mübadilələr üçün bir çox imkanlar mövcuddur və onlar formal və ya qeyri-formal təhsil kontekslərində həvəsləndirici təsirə malik ola bilərlər.

GƏNCLƏR ÜÇÜN BEYNƏLXALQ TƏCRÜBƏLƏR

- Gənclər fəaliyyətdə proqramı: ec.europa.eu/youth
- Kulinariya kitabı ("Hamı fərqli, hamı bərabər kampaniyası"na dair nümunələr): www.coe.int/t/dg4/youth/fej/ADAE%20cookbook.pdf
- Avropa Gənclər Fondu: www.eyf.coe.int/fej/

Gənclər təşkilatına üzvsünüzsə, bu imkandan gəncləri tanımadıqları bir çox "yuxarı" strukturlar (assosiasiyalar, beynəlxalq federasiyalar və s.) barədə məlumatlandırmaq məqsədi ilə istifadə edə bilərsiniz.

» *Mövzunu təqdim etməyə kömək edə biləcək bəzi suallar:*
  - *Gənclər təşkilatınız sadəcə konkret regionda/ölkədə fəaliyyət göstərir?*
  - *Təşkilatınız yuxarı səviyyədə təmsil olunan daha boyük qurumun üzvüdürmü?*

## TƏLİMÇİLƏRİN VƏ GƏNC LİDERLƏRİN TƏLİMİ

☐ Təlimçilərinizdən DVT/İHT barədə haradan öyrəndiklərini və axırıncı dəfə nə vaxt bu mövzuda təlim keçdiklərini soruşun.

» *Təşkilatınızda və ya məktəb sistemində təlimçilərin təliminin necə təşkil edildiyi barədə məlumatları onlarla paylaşın.*
  - *Sizcə, təlimçilər üçün təlimin davamlı olması nə üçün əhəmiyyətlidir?*

» *Onlara birgə qarşılıqlı təhsil ideyasını xatırladın. Bu ideya onlara digər yoldaşları ilə işləmək istədikləri təqdirdə, təkmilləşməli və öyrənməni davam etdirməli olduqlarını izah edir.*

## QİYMƏTLƏNDİRMƏ

Do you usually get the chance to express your opinion after an activity or lesson you have taken part in?
How can your opinion be taken into account?

FƏALİYYƏTİN SONUNDA QİYMƏTLƏNDİRMƏ

**Compasito,** Fəsil III
Qiymətləndirmə və düşünmə imkanları

**Kompas,**
Təkrarlama üçün fəaliyyətlər

**DVT/İHT Cild I: Demokratiya naminə tədris**
Bölmə 5 – Şagird, müəllim və məktəblərin qiymətləndirilməsi

## TƏDQİQAT

Serbiyalı orta məktəb şagirdləri birliyi tərəfindən tədqiqat prosesi təşkil olunmuşdur [...]

- *Nümunəni oxuduqdan sonra aşağıdakı suallar üzərində düşünün:*
  - *Hər hansı bir ölkədə təhsil sisteminin vəziyyətini hərtərəfli bilməyin faydası nə ola bilər?*
  - *Serbiya nümunəsində olduğu kimi siz də nə vaxtsa ölkənin təhsil sisteminin necə olması haqqında sorğu doldurmusunuzmı?*

Serbiyada tədqiqat nümunəsinin 25-ci səhifədə tələbə şuraları ilə bağlı verilmiş nümunəyə oxşar olduğuna diqət edin. Bu qanunun qəbul edilməsi sayəsində Serbiya tələbə şuralarının məktəbin idarə heyətində səs vermək hüququna malik olan Avropa ölkələri sırasına daxil olmuşdur.

Tədqiqat hər zaman sorğulardan ibarət olmur. **Fəsil 5-də**, "Hər kəsə bərabər imkanlar vermək" prinsipi təhlil olunarkən şəhərdə xüsusi ehtiyaclı insanların vəziyyəti ilə bağlı tədqiqat aparmaq məqsədi ilə xəritə tapşırığından istifadə olunmuşdur. Siz də gələcəkdə tədqiqatlarınızda bu metoddan istifadə edə bilərsiniz.




**Compasito**, *Fəsil V*
*23. Hüquqları xəritədə yerləşdirmək*
İnsan hüquqlarını gənclərin gündəlik həyatlarında olan yerlərlə əlaqələndirmək və cəmiyyətdə insan hüquqlarının vəziyyətinin qiymətləndirilməsini təşviq etmək imkanı verən xəritə üzərində fəaliyyət




**Kompas**
*Eynəklərinizi dəyişin*
Açıq havada edilən bu sadə tapşırıq gənclərin həyətə çıxaraq ətrafı başqalarının gözləri ilə təhlil etməsindən ibarətdir.



**DVT/İHT Cild I :**Demokratiya naminə tədris, Hissə 3, Bölmə2
*Tələbələr üçün qaydalar toplusu*
Müsahibələrin, sorğuların necə həyata keçirilməsi, həmçinin internetdə tədqiqat aparmaq məqsədilə gənclər üçün nəzərdə tutulmuş əsas göstərişlər

## TƏCRÜBƏ BÖLGÜSÜ

Bu sənəddə oxuduğunuz müsbət nümunələrdən ən maraqlısı hansı idi? Niyə?

» *Qrupunuzla aşağıdakı məsələləri təhlil edin:*
  - *Ölkənizin və ya başqa ölkələrin DVT/İHT sahəsində digər müsbət təcrübəsini oyrənməyin nə kimi faydası ola bilər?*
  - *Bu xartiyanı oxumazdan əvvəl nə vaxtsa olkənizdə və ya digər ölkələrdə DVT/İHT haqqında nə isə eşitmşdinizmi?*

☐ Məktəbinizin və ya təşkilatınızın məlumat bulleteni və ya veb səhifəsi varsa, ondan sinfiniz, yaxud qrupunuzda DVT/İHT sahəsində təcrübələriniz haqqında yazmaq üçün istifadə edin.

» *Qrupun təcrübələrini bölüşməsi üçün edə biləcəyi digər tədbirlər haqqında düşünün:*

  - *bu mövzu barədə qəzetlərdə, yaxud məktəb və ya gənclər təşkilatlarının xəbər bülletenləri və ya bloqlarında yazmaq;*
  - *məktəb / gənclər təşkilatının saytlarında mövzu ilə bağlı digər maraqlı saytların tövsiyə olunması;*
  - *plakat və sərgilərin hazırlanması;*
  - *tamaşalar qoyulması.*




**Compasito 4**, *Fəsil IV*
*İnsan hüquqlarını tanıtmaq*
Media haqqında tənqidi düşüncənin və insan hüquqlarını təşviq etməklə bağlı ideyaların formalaşdırılması



**DVT/İHT Cild I :** *Demokratiya naminə tədris, Hissə 3, Bölmə 2*
*Tələbələr üçün Qaydalar toplusu*
Müəyyən bir tapşırığın yerinə yetirilməsilə bağlı olan və əksəriyyəti təbliğat məqsədilə istifadə oluna biləcək müxtəlif ideyalar

## HƏR KƏSİ MƏLUMATLANDIRMAQ

Başqalarını bu Xartiya barəsində məlumatlandırmaq üçün hansı müxtəlif üsullar düşünə bilərsiniz?

» *Digərlərini DVT/İHT ilə bağlı təcrübələr barədə məlumatlandırma üsullarına dair öncəki siyahını tamamlayın.*
  - *Xartiya haqqında məlumatı necə əldə etmisiniz?*
  - *“ Hamı üçün Xartiya” da“Hüquqları aydınlaşdırın “nümunəsindən fərqlidirmi? (bax səh.29, “ Hamı üçün Xartiya”)*

» *Gəncləri təcrübələrini bölüşməklə bir-birlərindən necə öyrənə biləcəkləri haqqında düşünməyə həvəsləndirin.*

## Xartiya ilə bağlı işin yekunlaşdırılması

Artıq DVT/İHT haqqında  məlumatınız olduqdan sonra bu mövzu ilə bağlı hansı ideyaları dostlarınızla bölüşmək istərdiniz?

» *Gəncləri özlərinin "Hamı üçün Xartiya"sında sonuncu boş hissədə (səsgücləndirici ilə verilmiş) hansı cümləni paylaşmaq istədiklərini, nə öyrəndiklərini və ya Xartiyadan nəyi xatırlamaq istədiklərini yazmağa  təşviq edin.*

Yuxarıda qeyd olunduğu kimi qiymətləndirmə təkcə DVT/İHT üçün yox, qrupumuzla həyata keçirdiyiniz istənilən fəaliyyət növü üçün vacibdir. Bu səbəbdən, Xartiya ilə işi yekunlaşdırarkən belə qiymətləndirmə aparmaq vacibdir.

» *Gənclər topu bir-birinə ataraq ötürür, onu tutan hər kəs tapşırığın onlara uyğun olub-olmadığını (və bunun səbəbini) qiymətləndirmə üsulu olaraq kitabçalarında qeyd etdikləri cümləni söyləyir.*
» *Onları bu qiymətləndirməni sonradan təkrar etməyə və eyni ideyaları sənədi hazırlayan digər yoldaşları və komandaları ilə bölüşməyə həvəsləndirin.*

Bu ideyaları, eləcə də sizin fikir və təcrübələrinizi oxumaqdan məmnun olardıq. Onları bu ünvana göndərin edchre@coe.int!

# 3 Əlavələr

## Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası

### Nazirlər Komitəsinin NK/Töv. (2010)7 Tövsiyyəsi çərçivəsində qəbul edilmişdir

### Giriş

Avropa Şurasının demokratiya, insan hüquqları, qanunun aliliyi, eləcə də insan hüquqlarının pozulması hallarının qarşısının alınması kimi əsas dəyərlərinin təşviqində təhsil mühüm rola malikdir. Daha ümumi dillə desək, təhsilin zorakılıq, irqçilik, ekstremizm, ksenofobiya, ayrı –seçkilik və dözümsüzlüyün artmasına qarşı ən yaxşı müdafiə vasitəsi hesab olunması fikri getdikcə genişlənməkdədir. NK/Töv. (2010)7 Tövsiyyəsi çərçivəsində təşkilatın 47 üzv dövləti tərəfindən Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyasının (“DVT/İHT”) qəbul edilməsi bu sahədə məlumatlılığın günü-gündən artması faktını əks etdirir. Xartiya geniş məsləhətləhətləşmələr əsasında bir neçə il ərzində tərtib edilmişdir və məcburi xarakter daşımır.

Bu sənəd vətəndaşlıq və insan hüquqları haqqında təhsil prosesi ilə məşğul olan mütəxəssislər üçün mühüm istinad vasitəsi olacaqdır. İnanırıq ki, Xartiya üzv dövlətlərdə bu istiqamətdə konkret fəaliyyətlərin həyata keçirilməsi və daha çox canlanmasına, eləcə də bütün Avropa regionu və onun sərhədlərindən kənarda müsbət təcrübənin bölüşdürülməsi və standartların təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

### Bölmə I – Ümumi müddəalar

#### 1. Əhatə dairəsi

Bu Xartiya 2-ci paraqrafda müəyyən edildiyi kimi demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsillə bağlıdır. Mədəniyyətlərarası təhsil, bərabər təhsil imkanları, davamlı inkişaf və sülh naminə təhsil kimi müvafiq sahələrlə demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil anlayışları üst-üstə düşmədiyi və onlar arasında qarşılıqlı əlaqə olmadığı təqdirdə, bu sənəd müvafiq sahələri açıq şəkildə əhatə etmir.

#### 2. İzahlar

Bu Xartiyanın məqsədləri çərçivəsində:

a. “Demokratik vətəndaşlıq haqqında təhsil” demokratiya və qanunun aliliyinin təşviqi və müdafiəsi məqsədilə öyrənənləri bilik, bacarıq və anlama səriştəsi ilə təchiz edərək onların münasibət və davranışlarını formalaşdırmaqla cəmiyyətdə demokratik hüquq və vəzifələrini müdafiə etmək, müxtəlifliyi dəyərləndirmək və demokratik həyatda fəal rol oynamaq səlahiyyətini formalaşdırmağı hədəfləyən təhsil, təlim, maarifləndirmə, məlumat, təcrübə və fəaliyyət deməkdir.

b. “İnsan hüquqları haqqında təhsil” insan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi məqsədilə öyrənənləri bilik, bacarıq və anlama səriştəsi ilə təchiz edərək onların münasibət və davranışlarını formalaşdırmaqla cəmiyyətdə universal insan hüquqları mədəniyyətinin yaradılması və müdafiəsinə

töhfə vermək səlahiyyətini formalaşdırmağı hədəfləyən təhsil, təlim, maarifləndirmə, məlumat, təcrübə və fəaliyyət deməkdir.

c. "Formal təhsil" məktəbəqədər və ibtidai təhsildən başlayaraq orta təhsil və universitet təhsilinə qədər davam edən strukturlaşdırılmış təhsil və təlim sistemidir. Bu təhsil forması, bir qayda olaraq, ümumtəhsil və ya peşə təhsili müəssisələrində həyata keçirilir və sonda müvafiq təhsil sənədinin verilməsi ilə nəticələnir.

d. "Qeyri-formal təhsil" dedikdə formal təhsil müəssisələrindən kənarda bir sıra bilik və bacarıqların təkmilləşdirilməsi məqsədilə planlaşdırılmış proqram nəzərdə tutulur.

e. "İnformal təhsil" ömürboyu davam edən proses olub hər bir şəxsin onu əhatə edən mühit və ya gündəlik təcrübə  (ailə, həmyaşıdları, qonşular, ünsiyyət, kitabxana, mətbuat, iş, oyunlar və s.)  şəraitində olan təsir və resurslar sayəsində müəyyən davranış, dəyər, bacarıqlar və səriştələrin mənimsəməsini nəzərdə tutur.

### 3. Demokratik vətəndaşlıq haqqında təhsil və insan hüquqları haqqında təhsil arasında əlaqələr

Demokratik vətəndaşlıq haqqında təhsil və insan hüquqları haqqında təhsil bir-birilə sıx əlaqəlidirlər və bir-birini qarşılıqlı möhkəmləndirirlər.

Onlar məqsəd və tətbiqi metodikalarına görə deyil, tematika və əhatə dairəsinə görə bir-birindən fərqlənirlər. Demokratik vətəndaşlıq haqqında təhsil əsasən cəmiyyətin mülki, siyasi, sosial, iqtisadi, hüquqi və mədəni sahələri çərçivəsində demokratik hüquq və öhdəliklərə diqqət ayırır, insan hüquqları haqqında təhsil isə insan həyatının hər bir aspektində insan hüquqları və əsas azadlıqlarını daha geniş şəkildə əhatə edir.

### 4. Konstitusion strukturlar və üzv dövlətlərin prioritetləri

Aşağıda sadalanan məqsəd, prinsip və fəaliyyət metodları:

a. hər bir üzv dövlətin konstitusion strukturuna hörmətlə yanaşaraq bu strukturlara uyğun olan vasitələrdən istifadə etməklə

b. hər bir üzv dövlətin prioritet və ehtiyacları nəzərə alınmaqla tətbiq edilməlidir.

## Bölmə II –Məqsəd və prinsiplər

### 5. Məqsəd və prinsiplər

Üzv dövlətlər siyasətlərini, qanunvericiliklərini və praktikalarını formalaşdırarkən aşağıdakı məqsəd və prinsipləri rəhbər tutmalıdırlar.

a. Məqsəd öz ölkəsində yaşayan hər bir kəsə demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil almaq imkanı yaratmaqdır.

b. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil çərçivəsində öyrənmə ömürboyu davam edən bir prosesdir. Bu sahədə səmərəli təlim prosesinə siyasətçilər, təhsil üzrə mütəxəssislər, tələbələr, valideynlər, təhsil müəssisələri, təhsil orqanları, dövlət qulluqçuları, qeyri –hökumət təşkilatları, gənclər təşkilatları, mediya və ümumi ictimaiyyət də daxil olmaqla geniş maraqlı tərəflər cəlb olunurlar.

c.  Bu təlim prosesində formal, qeyri-formal və ya informal olmasından asılı olamayaraq,  bütün təhsil növləri müəyyən rol oynayır və onun prinsiplərinin təşviqində və məqsədlərinə nail olmaqda mühüm əhəmiyyət kəsb edir.

d. Qeyri-hökumət təşkilatları və gənclər təşkilatları, xüsusilə qeyri-formal və informal təhsil vasitəsilə demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil üçün dəyərli töhfələr verir və bu töhfəni verə bilmələri üçün müvafiq imkan və dəstəyə ehtiyc duyurlar.

e. Demokratiya və insan hüquqları ilə bağlı dəyər və prinsiplər tədris və təlim praktikası və fəaliyyətləri vasitəsi ilə tamamlanmalı və təşviq edilməlidir: xüsusilə, təhsil müəssisələri, o cümlədən məktəblərin idarə olunması insan hüquqları ilə bağlı dəyərləri əks etdirməli və təşviq etməli, eləcə də öyrənənlərin, pedaqoji kadrların və maraqlı tərəflərin, o cümlədən valideynlərin səlahiyyətlərini və fəal iştirakını artırmalıdır.

f. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilin istənilən növündə əsas elementlərdən biri sosial birlik və mədəniyyətlərarası dialoqun təşviq edilməsi, eləcə də  müxtəliflik və gender bərabərliyinə hörmətlə yanaşılmasıdır; bu məqsədlə münaqişələri azaltmaq imkanı yararan bilik, fərdi və sosial bacarıq və anlamanın inkişaf etdirilməsi, etiqadlar və etnik qruplar arasında müxtəlifliyin qiymətləndirilməsi və qəbul edilməsinin genişləndirilməsi, insan ləyaqətinə və birgə dəyərlərə  qarşılıqlı hörmətin təmin edilməsi, problem və mübahisələrin həlli prosesində dialoq və qeyri-zorakılığın təşviq edilməsi hədsiz dərəcədə vacibdir.

g. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilin istənilən növünün əsas məqsədlərindən biri yalnız öyrənənləri bilik, anlama və  bacarıqlarla təmin etmək deyil, eyni zamanda onlara cəmiyyətdə insan hüquqları, demokratiya və qanunun aliliyinin müdafiəsi və təşviqi üçün tədbirlər görməyə hazır olmağa həvəsləndirməkdir.

h. Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilin prinsip və tətbiqi metodikası çərçivəsində təhsil işçiləri və gənc liderlər, eləcə də təlimçilərin davamlı təlimi və inkişafı bu sahədə təhsilin səmərəliliyi və davamlılığı baxımından olduqca vacib rol oynayır və müvafiq şəkildə planlaşdırılmalı və zəruri vəsaitlərlə təmin edilməlidir.

i. Verilən töhfələrdən maksimum dərəcədə faydalana bilmək üçün demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil sahəsinə dövlət, regional və yerli səviyyədə cəlb olunmuş geniş maraqlı tərəflər, o cümlədən  siyasətçilər, təhsil mütəxəssisləri, öyrənənlər, valideynlər, təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, gənclər təşkilatları, kütləvi informasiya vasitələri və ictimaiyyət arasında tərəfdaşlıq və əməkdaşlıq təşviq edilməlidir.

j. İnsan hüquqları ilə bağlı dəyər və öhdəliklərin, eləcə də, demokratiya və qanunun aliliyinin ümumi fundamental prinsiplərinin beynəlxalq xarakterini nəzərə alaraq üzv dövlətlər bu Xartiyanın əhatə etdiyi fəaliyyətlər sahəsində beynəlxalq və regional əməkdaşlığı təşviq etməli, müsbət təcrübə müəyyənləşdirilməli və bölüşdürülməlidir.

## Bölmə III – Siyasətlər

### 6. Formal ümumi və peşə təhsili

Üzv dövlətlər demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsili məktəbəqədər təhsil müəssisələri, ibtidai və orta məktəblərin formal tədris proqramlarına, eləcə də ümumi və peşə təhsili və təlimi proqramlarına daxil etməlidirlər. Bu sahənin aktuallığını təmin etmək və davamlılığını təşviq etmək məqsədi ilə üzv dövlətlər həm də qeyd olunan tədris proqramlarında demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsili daim dəstəkləməli, təhlil etməli və yeniləməlidirlər.

### 7. Ali təhsil

Akademik azadlıq prinsipinə riayət edərək üzv dövlətlər demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsilin ali məktəblərdə, xüsusilə gələcək mütəxəssislər üçün tədirs proqramlarına daxil edilməsini təşviq etməlidirlər.

## 8. Demokratik idarəetmə

Üzv dövlətlər arzuolunan və faydalı metod olaraq, həmçinin demokratiya və insan hüquqlarına hörmətin öyrənilməsi və tətbiqi üçün praktik bir vasitə kimi bütün tədris ocaqlarında demokratik idarəçiliyi təşviq etməlidirlər. Bu dövlətlər öyrənənlər, təhsil işçiləri və valideynlər də daxil olmaqla maraqlı tərəflərin təhsil ocaqlarının idarəçiliyi prosesində fəal  iştirakını müvafiq vasitələrlə təşviq etməli və bu prosesə dəstək olmalıdırlar.

## 9. Təlim

Üzv dövlətlər müəllimlər, digər təhsil işçiləri, gənc liderlər və təlimçilər üçün demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsillə bağlı zəruri ilkin və davamlı təlimlər və peşəkar inkişaf proqramları təşkil etməlidirlər. Bu  fənnin məqsəd və prinsipləri, müvafiq tədris və təlim metodları, eləcə də bu sahə ilə bağlı digər başlıca bacarıqların dərindən öyrənilməsi və başa düşülməsi təmin edilməlidir.

## 10. Qeyri-hökumət təşkilatları, gənclər təşkilatları və digər maraqlı tərəflərin rolu

Üzv dövlətlər, xüsusilə qeyri-formal təhsil çərçivəsində demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsildə qeyri - hökumət və gənclər təşkilatlarının rolunu möhkəmləndirməlidirlər. Onlar sözügedən təşkilatları və onların fəaliyyətlərini təhsil sisteminin mühüm hissəsi kim tanımalı, onlara ehtiyac duyduqları mümkün zəruri dəstək verməli və onların bütün təhsil formalarına verə biləcəkləri təcrübəsindən tam istifadə etməlidirlər.

Üzv dövlətlər verə biləcəkləri  töhfələrdən maksimum yararlanmaq məqsədi ilə demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsili digər maraqlı tərəflər, xüsusilə də media və ictimaiyyət arasında təşviq və təbliğ etməlidirlər.

## 11. Qiymətləndirmə meyarları

Üzv dövlətlər demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil üzrə proqramların səmərəliliyini qiymətləndirilmək üçün meyarlar tərtib etməlidirlər. Öyrənənlərin rəy və fikirləri belə qiymətləndirmələrin əsas hissəsini təşkil etməlidir.

## 12. Tədqiqat

Üzv dövlətlər bu sahədə cari vəziyyəti qiymətləndirmək və qərar qəbul edənlər, təhsil müəssisələri, məktəb rəhbərləri, müəllimlər, qeyri- hökumət təşkilatları və gənclər təşkilatları daxil olmaqla maraqlı tərəflərin səmərəlilik və effektivliyinin qiymətləndirilməsinə, həmçinin fəaliyyətlərinin təkmilləşdirilməsinə yardım edəcək müqayisəli informasiya təmin etmək məqsədilə demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsillə bağlı tədqiqata başlamalı və onu təşviq etməlidirlər. Bu tədqiqata bir sıra digər sahələrlə yanaşı, tədris proqramları, innovativ təcrübələr, tədris metodları və qiymətləndirmə sistemlərinin, o cümlədən qiymətləndirmə meyarları və göstəricilərinin yaradılması daxil edilə bilər. Üzv dövlətlər müvafiq hallarda tədqiatlarının nəticələrini digər dövlətlərlə və maraqlı tərəflərlə bölüşməlidirlər.

## 13. Sosial birlik, müxtəlifliyə hörmət,  fərqlilik və münaqişələrin idarə edilməsinin təşviqi üzrə bacarıqlar

Üzv dövlətlər təhsilin bütün sahələrində demokratik və çox mədəniyyətli cəmiyyətlərdə birgə yaşamağı aşılayan və öyrənənlərə sosial birliyi təşviq etmək, müxtəliflik və bərabərliyə  hörmətlə yanaşmaq, xüsusilə müxtəlif dini və etnik qruplar arasında fərqliliyi qiymətləndirmək və  bir-birinin hüquqlarına hörmətlə yanaşaraq fikir ayrılıqlarını və münaqişələri qeyri-zorakı üsullarla həll etmək, eləcə də ayrı – seçkilik və zorakılığın əsasən hədə-qorxu və təcavüz daxil olmaqla bütün formalarına qarşı  mübarizə aparmaq imkanı yaradan zəruri bilik və bacarıqları mənimsəmək məqsədi daşıyan pedaqoji yanaşmaları və tədris metodlarını təşviq etməlidirlər.

# Bölmə IV - Qiymətləndirmə və əməkdaşlıq

## 14. Qiymətləndirmə və təhlil

Üzv dövlətlər bu Xartiya ilə bağlı həyata keçirdikləri strategiya və siyasətləri müntəzəm olaraq qiymətləndirməli və zərurət yaranarsa, onları müvafiq qaydada uyğunlaşdırmalıdırlar. Bunu, məsələn, regional səviyyədə digər üzv dövlətlərlə əməkdaşlıq çərçivəsində etmək mümkündür. Həmçinin, istənilən üzv dövlət bu istiqamətdə Avropa Şurasından yardım tələb edə bilər.

## 15. Nəzarət sahəsində əməkdaşlıq

Lazım gəldikdə, üzv dövlətlər aşağıda qeyd olunan fəaliyyətlər vasitəsilə bu Xartiyanın məqsəd və prinsiplərinin həyata keçirilməsində bir-biriləri və Avropa Şurasının vasitəçiliyi ilə əməkdaşlıq etməlidirlər:

a. ümumi maraq kəsb edən məsələlərin həyata keçirilməsi və müəyyən edilmiş prioritetlərin tətbiqi;

b. demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil üzrə koordinatorların mövcud şəbəkəsi də daxil olmaqla çoxtərəfli və ölkələrarası fəaliyyətlərin həyata keçirilməsi üçün müvafiq imkanların yaradılması;

c. müsbət təcrübələrin mübadiləsi, inkişafı, sistemləşdirilməsi və yayılmasının təmin edilməsi;

d. ictimaiyyət də daxil olmaqla, bütün maraqlı tərəflərin Xartiyanın məqsədləri və həyata keçirilməsi ilə bağlı məlumatlandırılması;

e. Avropanın qeyri- hökumət təşkilatları, gənclər təşkilatları və təhsil mütəxəssislərinə və onlar arasında əməkdaşlığa dəstək göstərilməsi;

## 16. Beynəlxalq əməkdaşlıq

Üzv dövlətlərAvropa Şurası çərçivəsində demokratik vətəndaşlıq və insan hüquqları təhsili sahəsində həyata keçirdikləri işlərin nəticələrini digər beynəlxalq təşkilatlarla bölüşməlidirlər.

## İş cədvəli: Demokratiya və insan hüquqları bizimlə başlayır.

Bu bəyanatların sizin qrupda nə dərəcədə həyata keçirildiyini müəyyən etmək üçün barometrdən istifadə edin.




## Avropa Şurasına üzv dövlətlərin xəritəsi (növbəti səhifədə)

# Council of Europe
# Conseil de l'Europe

# 47 Member States
# États membres




Albania - Albanie
Tirana

Andorra - Andorre
Andorra-la-Vella
Andorre-la-Vieille

Armenia - Arménie
Yerevan - Erevan

Austria - Autriche
Vienna - Vienne

Azerbaijan - Azerbaïdjan
Baku - Bakou

Belgium - Belgique
Brussels - Bruxelles

Bosnia and Herzegovina
Bosnie-Herzégovine
Sarajevo

Bulgaria - Bulgarie
Sofia

Croatia - Croatie
Zagreb

Cyprus - Chypre
Nicosia - Nicosie

Czech Republic -
République Tchèque
Prague

Denmark - Danemark
Copenhagen - Copenhague

Estonia - Estonie
Tallinn

Finland - Finlande
Helsinki

France
Paris

Georgia - Géorgie
Tbilisi - Tbilissi

Germany - Allemagne
Berlin

Greece - Grèce
Athens - Athènes

Hungary - Hongrie
Budapest

Iceland - Islande
Reykjavik

Ireland - Irlande
Dublin

Italy - Italie
Rome

Latvia - Lettonie
Riga

Liechtenstein
Vaduz

Lithuania - Lituanie
Vilnius

Luxembourg
Luxembourg

Malta - Malte
Valletta - La Valette

Republic of Moldova -
République de Moldova
Chişinău

Monaco
Monaco

Montenegro -
Monténégro
Podgorica

Netherlands - Pays-Bas
Amsterdam

Norway - Norvège
Oslo

Poland - Pologne
Warsaw - Varsovie

Portugal
Lisbon - Lisbonne

Romania - Roumanie
Bucharest - Bucarest

Russian Federation -
Fédération de Russie
Moscow - Moscou

San Marino - Saint-Marin
San Marino - Saint-Marin

Serbia - Serbie
Belgrade

Slovakia - Slovaquie
Bratislava

Slovenia - Slovénie
Ljubljana

Spain - Espagne
Madrid

Sweden - Suède
Stockholm

Switzerland -
Suisse
Bern - Berne

"The former Yugoslav Republic of Macedonia" -
"L'ex-République yougoslave de Macédoine"
Skopje

Turkey - Turquie
Ankara

Ukraine
Kyiv - Kiev

United Kingdom -
Royaume-Uni
London - Londres

Map for illustrative purposes
Carte à caractère illustratif
Designed by Latitude Mapping Ltd

# Təşəkkür

Bu material Demokratik Vətəndaşlıq və İştirak Direktoratlığı (Təhsil və Gənclər Departamentləri) və Avropa Şurasının “Uşaqlar üçün və uşaqlarla birgə Avropanın formalaşdırılması” Proqramı ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Layihə bir çox tərəfdaşların, o cümlədən təlimçilər, gənclərin QHT-ləri, uşaq və gənclərin dəstəyi, fikir və rəyləri əsasında həyata keçirilmişdir. OBESSU-ya (Avropa Məktəb Tələbələri Birlikləri) və IFM-SEI-yə (Beynəlxalq falkon hərəkatı – Sosialist beynəlxalq təhsil) xüsusi minnətdarlığımızı bildirmək istərdik.

1949-cu ildə təsis edilmiş Avropa Şurası insan hüquqları, demokratiya və qanunun aliliyi kimi dəyərləri bölüşən ölkələri birləşdirir. Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları haqqında Təhsil üzrə Xartiyası tədris prosesində və tədris vasitəsilə bu dəyərləri təşviq etmək məqsədi ilə tərtib edilmişdir. Xartiyanın uşaqlar üçün uyğunlaşdırılaraq hazırlanmış versiyası (“Hamı üçün Xartiya”) bu beynəlxalq hüquqi sənədin nə haqqında olduğunu və siniflər, məktəb və bütövlükdə cəmiyyətdə insan hüquqları və demokratiyanı təşviq etmək üçün ondan necə istifadə edilə biləcəyini öyrənmək istəyən hər bir kəs, xüsusilə də gənclər üçün nəzərdə tutulmuşdur. Müəllimlər üçün tövsiyələr müəllim və təlimçiləri “Hamı üçün Xartiya” üzərində uşaq və gənclərlə necə işləyəcəkləri haqqında məsləhət və yardımla təmin etmək məqsədini daşıyır.

Avropa Şurası faktiki olaraq bütövlükdə Avropa qitəsini əhatə edən 47 üzv dövləti birləşdirir. Onun məqsədi Avropa İnsan Hüquqları Konvensiyası və insanların müdafiəsi haqqında digər sənədlərə əsaslanan ümumi demokratik və hüquqi prinsipləri inkişaf etdirməkdir. 1949-cu ildə İkinci Dünya müharibəsindən sonra təsis edildiyi gündən etibarən Avropa Şurası barışığı simvolizə etməkdədir.

Avropa Şurası
Demokratik vətəndaşlıq və insan hüquqları haqqında təhsil üzrə Xartiya

www.coe.int/edchre

Mail: edchre@coe.int

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE